www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-10 iyun 2024-cü il Şənbə № 100 (8473) Qiymәti 60 qəpik

Xəbər

## Azərbaycanda qarayara təhlükəsi

yazısı səh.2-də

## KREML VASİTƏÇİLİYƏ QAYIDIR, YOXSA EV SAHİBLİYİ İSTƏYİR? - BAKIDAN REAKSİYALAR...

Rusiya Azərbaycanla Ermənistan arasında sülh danışıqlarında rol almağa hazır olduğunu yenə xatırladır, Vaşinqton və Brüssel isə ikitərəfli müzakirələr modelini dəstəkləyir - təhlil yazısı səh.9-da



## Fransadan Xocalı qatilinin hesabına 2 milyonu kim köçürüb - ilginc faktlar

Soyqırımının fəal üzvü Bakıda hakim qarşısına çıxarıldı; "Qadın-uşaqları güllələyərkən qəhqəhə çəkib gülürdük" yazısı səh.3-də

### Gündəm

### Parlament 2024-cü ilin büdcəsinə əlavələrə "hə" dedi



Milli Məclisin növbədənkənar sessiyasında hökumətin iştirakı ilə mühüm məsələlər müzakirə olundu

yazısı səh.4-də

### Zəngəzur dəhlizi ilə bağlı yeni tarix - İrəvanın inadı Ermənistanı "vurur"

yazısı səh.7-də

### Tiflisdən Qərbi qəzəbləndirəcək daha bir addım - doğru, amma...

yazısı səh.12-də

### Gömrük buraxılış məntəqələri ilə bağlı yeni layihələr hazırlanıb

yazısı səh.5-də

### İranda 800 nəfər prezident olmaq istəyir

yazısı səh.3-də

### Uşaqların sayı niyə azalır - sosioloqdan ilginc iddia

yazısı səh.6-da

### Zəlzələ olmadan çökən binalar - mütəxəssislər deyir ki...

yazısı səh.14-də

### "Qırmızı xətlər"in tapdandığı müharibə Rusiyaya keçir

yazısı səh.11-də

### Azərbaycanın AÇG və Şahdəniz üzrə gəlirləri açıqlandı

yazısı səh.2-də

### Bu şəxslər Azərbaycan vətəndaşları ilə nikaha girə bilməyəcəklər

yazısı səh.2-də

### Avtobuslarda kondisioner və yoluxma problemi

yazısı səh.6-da



*Hikmət Babaoğlu:*

**"Ərazi mübadiləsi nəzəri baxımdan bəlkə mümkündür, amma..."**

yazısı səh.5-də



Ləman Süleymanova

*Həkim:*

**"İnsanlar fərqinə varmır ki, içdikləri bu zəhərli maddələr bütün orqanlara dağıdıcı zərbə vurur"**

yazısı səh.13-də



**Baydendən sensasion SSRİ xəbərdarlığı - mesajın pərdəarxası**

yazısı səh.8-də



# Bu şəxslər Azərbaycan vətəndaşları ilə nikaha girə bilməyəcəklər

**Azərbaycan Respublikası ərazisində qanunsuz olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan vətəndaşı ilə nikaha girməsinə icazə verilməyəcək.**

Musavat.com-un məlumatına görə, bununla bağlı məsələ Milli Məclisin dünən keçirilən iclasında müzakirə edilən Ailə Məcəlləsinə dəyişiklikdə öz əksini tapıb.

Sənəddə qeyd olunur ki, Azərbaycan Respublikasının ərazisində olma və ya yaşama hüququ verən sənədlər olmadan, yaxud qeydiyyatsız uzun müddət yaşayan əcnəbilərin bir çoxu ölkə ərazisini tərk etməmək üçün son anda mümkün asan vasitə olaraq Azərbaycan Respublikasının vətəndaşı ilə nikah bağlamağı seçirlər. Bu hal Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olan əcnəbilərə münasibətdə qanunvericiliyin müəyyən etdiyi imtiyazlardan sui-istifadə edilməsi riski yaratmaqla yanaşı, qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərin effektivliyinə mənfi təsir göstərir.

Təqdim olunan qanun layihəsi də məhz ölkəmizdə qanunsuz miqrantların müəyyən edilməsi və qanunsuz miqrasiyanın qarşısının alınması, o cümlədən miqrasiya qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması məqsədilə hazırlanmışdır.

Belə ki, layihədə Ailə Məcəlləsinin nikahın bağlanmasına mane olan halları əks etdirən 12-ci maddəsinə dəyişiklik edilməsi təklif olunur. Bu dəyişikliyə əsasən aralarında nikahın bağlanmasına yol verilməyən şəxslərin sırasına ikisindən biri və ya hər ikisi ölkə ərazisində qanunsuz olan və yaxud yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərin də əlavə edilməsi nəzərdə tutulur.

Müzakirələrdən sonra dəyişikliklər səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.



# Azərbaycanın AÇG və Şahdəniz üzrə gəlirləri açıqlandı

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) bu ilin ilk 5 ayı ərzində Azəri-Çıraq-Günəşli və Şahdəniz üzrə gəlirlərini açıqlayıb.**

ARDNF-dən "APA-Economics"ə verilən məlumata görə, AÇG yatağından - bu ilin əvvəlindən iyunun 1-i tarixinə 2 617,2 mln. ABŞ dolları, Şahdəniz yatağından (qaz və kondensat) isə ilin əvvəlindən 1 iyun tarixinə 244,069 mln. ABŞ dolları gəlir əldə edilib.

O cümlədən, Şahdəniz yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlər hesabat dövründə 60,784 mln. ABŞ dolları təşkil edib.

# COP29 çərçivəsində AİİB-lə tərəfdaşlıq imkanları müzakirə edilib



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Asiya İnfrastruktur İnvestisiya Bankının (AİİB) vitse-prezidenti Lyudqer Şuknextlə görüşüb.**

Bu barədə "APA-Economics"ə nazirlikdən bildirilib.

Görüşdə Azərbaycanın Banka üzv olduğu 2016-cı ildən səmərəli əməkdaşlığın davam etdiyi vurğulanıb. Bankın üzv ölkələrin infrastruktur baxımdan inkişafına verdiyi dəstək qeyd olunub. Dayanıqlı inkişafın təmin olunması, o cümlədən "yaşıl iqtisadiyyat"a keçid, "yaşıl enerji"nin təşviqi, həmçinin COP29-a hazırlıq çərçivəsində ölkəmizdə görülən işlər diqqətə çatdırılıb. COP29 çərçivəsində birgə iş və tərəfdaşlıq imkanları müzakirə edilib. Bankla əməkdaşlıq çərçivəsində prioritet layihələr barədə məlumat verilib.

Lyudqer Şuknext Bankın Azərbaycanla uğurlu tərəfdaşlıq etdiyini bildirib. AİİB-in Asiya regionunda iqtisadi artımın stimullaşdırılması, iqlim siyasətinə əsaslanan maliyyələşdirmə aləti, az inkişaf etmiş üzvlər üçün nəzərdə tutulan xüsusi fond pəncərəsi barədə məlumat verib. Bankın işbirliyi çərçivəsində maraq göstərdiyi yeni istiqamətlər barədə fikirlərini bölüşüb.

Tərəflər ikitərəfli əməkdaşlıq məsələlərinin müxtəlif aspektlərini nəzərdən keçiriblər. AİİB tərəfindən son dövrlərdə həyata keçirilən strategiyalar və nəzərdə tutulan tədbirlər, Azərbaycanda Bankın fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparılıb.

# Bakının bəzi ərazilərində yollar təmirə bağlanır



**8 iyun saat 10:00-dan Bakının Atatürk prospektində (Səttar Bəhlulzadə küçəsindən Fətəli xan Xoyski küçəsinə qədər), iyunun 10-da isə saat 10:00-dan Bakının Suraxanı rayonunun Səttar Bəhlulzadə küçəsində (Heydər Əliyev prospektindən "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğuna qədər) təmir işlərinə başlanılacaq.**

Modern.az bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə istinadən xəbər verir.

Məlumata görə, təmir müddətində sözügedən hissələrdə işlərin aparıldığı zolaqlar üzrə hərəkət qismən məhdudlaşdırılaraq digər zolaqlara yönləndiriləcək, amma yollar bağlanmayacaq.

"Sürücülərdən aparılan işlərə anlayışla yanaşmaları, təmir müddətində sözügedən hissələrdə hərəkətdə olarkən diqqətli olmaları, təmir ərazilərində qoyulacaq müvəqqəti yol nişanlarının tələblərinə və yol hərəkəti qaydalarına riayət etmələri xahiş olunur", - deyə agentlik bəyan edib.



# Zəngəzur Milli Parkının ərazisi fəaliyyət zonaları üzrə bölünüb

**"Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkının ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonaları üzrə bölgüsü" təsdiq edilib.**

APA xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb. Qərara əsasən, Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkının ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonaları üzrə bölgüsü" əlavə olunmuş xəritədə və aşağıda göstərilən hüdudlarda təsdiq edilib:

- Xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zona (qoruq rejimi) - 15652,53 hektar.
- Təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zona - 26997,87 hektar.
- Turizm və rekreasiya zonası - 124,82 hektar.
- Turistlərə və başqalarına xidmət göstərilən zona - 4,40 hektar.
- Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonası - 0,23 hektar.



# Azərbaycanda qarayara təhlükəsi

**06.06.2024-cü il tarixdə Zaqatala rayonu Faldarlı kəndinin 3 sakini (2 kişi, 1 qadın) Kliniki Tibbi Mərkəzə qarayara diaqnozu ilə hospitalizasiya olunub.**

Modern.az xəbər verir ki, bu barədə TƏBİB məlumat yayıb.

Hər üç şəxs Mərkəzin Yoluxucu xəstəliklər şöbəsinə yerləşdirilib.

Onlardan 1 nəfərdə (kişi cinsli) qarayara diaqnozu təsdiqlənib, tibbi protokola uyğun olaraq müalicəsi davam etdirilir.

Digər iki şəxsdən isə qarayara şübhəsilə laborator müayinə üçün nümunələr götürülüb və Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinə göndərilib.

Hər 3 şəxsin vəziyyəti orta-ağır qiymətləndirilir.

YENİ MÜSAVAT
N 100 (8473) 8 iyun 2024



# Fransadan Xocalı qatilinin hesabına 2 milyonu kim köçürüb - ilginc faktlar

## Soyqırımının fəal üzvü Bakıda hakim qarşısına çıxarıldı; "Qadın-uşaqları güllələyərkən qəhqəhə çəkib gülürdük"

**Bakının Sabunçu Rayon Məhkəməsinin binasında Füzuli Hərbi Məhkəməsinin hakimləri Raşid Beqlaryanın cinayət işi üzrə məhkəmə araşdırması aparır.**

Musavat.com xəbər verir ki, Raşid Beqlaryan Xocalı soyqırımının törədilməsində iştirak etməkdə ittiham olunur. Azərbaycanlı istintaqçıların əlinə Raşid Beqlaryanın vaxtilə öz əli ilə yazdığı sənədli mətn keçib. Həmin mətndə Raşid Beqlaryan Xocalıda soyqırımı törədilməsini xırda detallarına qədər qələmə alıb. Ağlına belə gəlməyib ki, əlyazması onun və əli Xocalıda Azərbaycan vətəndaşlarının qanına batan özü kimi qatillərin ittiham aktının əsasını təşkil edəcək.

Ancaq 2024-cü il iyunun 7-də o, hakim qarşısına sülh və insanlıq əleyhinə və digər ağır cinayətlərin törədilməsinə görə çıxarılıb.

Hakim Əli Süleymanovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamının müdafiəsi Respublika Hərbi Prokurorluğunun dövlət ittihamının müdafiəsi şöbəsinin prokuroru Fuad Kazımova həvalə olunub.

Ermənistan vətəndaşı Raşid Beqlaryan ötən ilin yayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın rayonunun Zabux kəndi ərazisindən keçən hissəsində dövlət sərhədini qanunsuz keçərkən həbs edilib. Onun cinayət işi üzrə istintaq Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İstintaq Baş İdarəsi tərəfindən aparılıb.

Beqlaryan Xocalı soyqırımının törədilməsi ilə bağlı istintaqa önəmli məlumatlar verib. O, 1992-ci il fevralın 26-da özünün də daxil olduğu silahlı birləşmələr tərəfindən 200 nəfərə kimi mülki azərbaycanlını xüsusi amansızlıqla güllələdiklərini etiraf edib. Müvafiq şəxslər cinayət işi üzrə zərərçəkmiş qismində tanınıb.

Beqlaryan məhkəmədə dövlət hesabına vəkil və tərcüməçi ilə təmin edilib, hakim onun qanunla nəzərdə tutulan hüquqlarını izah edib.

Beqlaryanla bağlı istintaq zamanı başqa maraqlı məqamlar da üzə çıxıb. Məlum olub ki, Fransa Respublikasından onun hesablarına 2 milyon avroya yaxın pul köçürülüb. Özünün iddiasına görə, tutulanadək Fransada yaşayan bəzi şəxslər həmin pulu ona kömək məqsədi ilə ianə ediblər.

Beqlaryanın Xocalı faciəsi vaxtı iştirak etdiyi və şahidi olduğu cinayətlərinə gəlincə, o, həmin vaxt baş verənləri özünün "Beqlaryanın döyüş yolu" adlı sənədli mətnində (Azərbaycanda tutulanadək) ətraflı qeyd edib.

Beqlaryan həmin sənədli mətndə yazır ki, döyüş yolu Murad Petrosyanın rəhbəri olduğu 3-cü dəstədən başlayıb, həmin dəstənin tərkibində döyüşüb, komandirin tapşırıqlarını icra edib. Etiraf edib ki, həmin dəstə Ağdam-Şuşa yolundakı körpünü partladıb, türklərin kalonlarını məhv edib. Sonradan özü dəstə komandiri olub. Xocalı və Xocavənddə gedən döyüşlərdə 4 dəfə yaralanıb. Döyüşlərdən sonra ona "Vətənin müdafiəsi" medalı verilib.

İstintaq dövründə əməllərini etiraf edən Beqlaryan məhkəmədə Xocalı faciəsi ilə bağlı bəzi məqamları dostu Seqo Doluxanyandan eşitdiyini deyib. İstintaq vaxtı deyib ki, Seqo Doluxanyan Əsgəran bölüyünün döyüşçüsü olub. Xocalı faciəsinin törədiləcəyini də o deyib:

"Seqo dedi, göstəriş var ki, azərbaycanlıları güllələyək. 50-60 nəfər hücum üçün hazır vəziyyətdə idi. Həmin vaxt biz hamımız Qarabağ azərbaycanlılarına nifrət edirdik, tapşırıq olmasa belə öldürməyə hazır idik".

Hakim sənədləri tədqiq edərkən Beqlaryanın Xocalı soyqırımının törədilməsi haqda etiraflarını elan edib. Beqlaryan həmin faciəli 26 fevralı özü də dəhşətli gün adlandırıb: "Dəhşətli mənzərə idi. Həmin gün azərbaycanlılar bir yerə toplaşdığı vaxt onları güllələməyə başladıq. Bəziləri meşəyə qaçmağa çalışsa da, onların çoxunu tapıb güllələdik. Qadın və uşaqlar ah-nalə edirdi. Etiraf edim ki, dəhşətli mənzərə idi. Qadınlar, uşaqlar qışqıranda bizimkilər qəhqəhə çəkib gülürdü. Yalnız kiçik bir qrup meşə yolu ilə canını qurtara bildi. Hamını qırdıqdan sonra bizimkilər meyitlərin üzərindəki qiymətli əşyaları topladılar, sonda da Əsgəran yolu ilə qaçdıq".

Təqsirləndirilən şəxs vəhşicəsinə öldürülən dinc əhalinin meyitlərinin necə basdırılmasından da danışıb: "Hadisədən bir müddət sonra eşitdik ki, camaat yerdə qalan meyitlərin iyindən şikayət edir. Bundan sonra meyitlər bir-birinin üstündə Əsgəran qalasının yanındakı kütləvi məzarlıqda basdırıldı".

Separatçı müttəhim istintaq vaxtı dedikləri bəzi məqamları dostu Seqo Doluxanyandan eşitdiyini, öz əli ilə vaxtilə sənəddə yazdıqlarını isə guya müharibədən sonra ona pensiya verilsin deyə yazdığını deyib: "Mən ancaq yük maşınımla ərzaq daşımışam. Döyüşlərdə iştirakımı da ona görə şişirtmişəm ki, müharibədən sonra mənə pensiya versinlər".

Bundan sonra hakimin sualına cavab verən Beqlaryan Xocalı soyqırımının törədilməsini açıq məhkəmə prosesində etiraf edib: "Qəbul edirəm ki, soyqırımı olub."

Növbəti prosesdə sənədlərin tədqiqi mərhələsi davam edəcək.

❑ **Elşən MƏMMƏDƏLİYEV, Musavat.com**

# İranda 800 nəfər prezident olmaq istəyir

## Seçkilərin favoriti bəlli oldu? - Xamenei ilə ixtilafı olan iddiaçı

**İranda prezident İbrahim Rəisinin ölümü səbəbi ilə bağlı nəzərdə tutulan növbədənkənar seçkilərin keçirilməsinə 3 həftədən də az qalır. Artıq onlarla iddiaçı marafona qoşulmaq üçün müraciət edib. Onlardan biri də sabiq Prezident Mahmud Əhmədinejaddır.**



Gələn məlumatlara görə, Əhmədinejad artıq seçkiqabağı təbliğat və təşviqat kampaniyasına başlayıb. Onun vətəndaşlar və seçicilərlə aktiv görüşlər keçirdiyi deyilir. Bildirilir ki, Tehranın müxtəlif məhəllələri, bazarları və ictimai yerlərində vətəndaşlarla görüşən keçmiş prezident seçki platformasını açıqlayır.

Maraqlıdır ki, bir neçə ildir İran rəhbəri Əli Xamenei ilə ixtilafı olan keçmiş prezidentin vətəndaşlar tərəfindən rəğbətlə qarşılanması hakim sistemin nümayəndələrinin narahatlığına səbəb olub.

Bəs Əhmədinejad seçkiyə buraxılacaqmı? Yəni Ali Seçki Şurasının "ələyindən" keçə, Xameneinin xeyir-duasını ala biləcəkmi? Ümumiyyətlə, seçkiyə 3 həftə qalmış hansısa favoritdən danışmaq mümkünmü?

Politoloq Oqtay Qasımov "Yeni Müsavat"a bildirdi ki, İranda keçiriləcək prezident seçkiləri bütün dünyanın diqqət mərkəzindədir, o cümlədən Azərbaycanı da yaxından maraqlandıran bir hadisədir. Adətən İranda seçkilər keçirilərkən namizəd kimi iştirak üçün istəklərini bildirənlərin sayı yüzlərlə olur. Necə ki, keçən prezident seçkilərində də belə oldu. Amma ən son qərar Ali Seçki Şurasında müzakirələr verildikdən sonra bu qurum tərəfindən verilir. Keçən dəfə prezident seçkilərində minə yaxın iddiaçıdan cəmi yeddisi rəsmi namizəd kimi sekiyə buraxıldı. Bu dəfə seçkidə də eyni praktika təkrar olunacaq: "Namizədlərin kim olmasını əslində əsasən ali dini lider Əli Xamenei müəyyən edir. İndiyə qədər namizədliyini irəli sürmüş şəxslərə baxdığımızda onların içərisində İran siyasətində və cəmiyyətində müəyyən nüfuza malik şəxslərin olduğunu görməkdəyik. Həm keçmiş parlament sədri Əli Laricani, həm keçmiş prezident Mahmud Əhmədinejad, həm də nazirlər arasında iddiaçılar var ki, nüfuza malikdirlər. Maraqlıdır ki, hazırda prezident səlahiyyətlərini həyata keçirən şəxs öz namizədliyini irəli sürmədi. Namizədliyi irəli sürülən keçmiş prezident Mahmud Əhmədinejad prezident olduğu dövrdə İranla beynəlxalq güclər, Qərb arasında münasibətlər kifayət qədər gərgin olmuşdu. Bu gərginlik bəzən özünün ən yüksək nöqtəsinə qədər yüksəlmişdi. Yəni Əhmədinejad İranda mühafizəkar kəsimin ən iddialı və qələbə şansı olan namizədlərindən biridir. Amma nəzərə alsaq ki, İranda prezidentin vəzifələri icra edici vəzifədir və o, demək olar birabaşa Ali dini liderin göstərişlərini yerinə yetirir, bu baxımdan qonşu ölkədə hazırkı dönəmdə favoritlərin adını çəkmək hələ erkəndir. Ali Seçki Şurası namizədləri müəyyən edib seçkiyə buraxandan sonra siyahıya baxıb konkret fikir söyləmək olar".

Politoloq qeyd etdi ki, Mahmud Əhmədinejadın namizədliyinin qeydə alınması birbaşa Ali dini lider Xameneinin iradəsindən asılı olacaq. Əhmədinejad Ali dini liderin iradəsini qəbul edəcəksə o zaman namizədliyi qeydə alına bilər. Əks halda namizədliyinin qeydə alınması keçən dəfəki kimi problematik olacaq: "Namizədliyi qeydə alınsa o deməkdir ki, Əli Xameneinin iradəsini qəbul edib. Bu zaman isə seçicilərin ona etimadının necə olacağı kampaniyanın gedişində özünü hiss etdirəcək".

Siyasi şərhçi Əli Orucov isə bildirdi ki, İranda növbədənkənar seçkilərin vaxtı yaxınlaşdıqca daxili ictimai siyasi atmosferdə hərarət də yüksəlməkdədir. İndiyədək 800 namizəd İran İslam Respublikasının prezidenti olmaq həvəsinə düşüb: "Təbii ki, bu namizədlər də Konstitusiya Mühafizəsi Şurasının süzgəcindən və Ali Dini rəhbərin onayından sonra prezidentlik mübarizəsinə qoşulmaq imkanı qazanacaqlar. İndiyədək iddialılar arasında diqqət çəkən şəxslərdən biri də İranın 6-cı prezidenti olmuş Mahmud Əhmədinejaddır. O, 2005-2013-cü illər arasında 2 dəfə olmaqla 8 il dövlət başçısı vəzifəsini daşıyıb. Əhmədinejad özü hakimiyyəti dönəmində müəyyən reformlar həyata keçirsə də, mühafizəkar qanadını təmsil edir. Onun prezidentliyi dönəmində Qərb ölkələri ilə münasibətlər gərgin olub. İranın nüvə proqramının davam etdirilməsi və nüvə silahına sahib olmağının tərəfdarı olub. Sabiq prezident bunu islam dövlətinin müsəlman dünyasının haqqı olduğu fikirdədir. Əhmədinejad İsrailə qarşı çox sərt siyasət yürüdür. Belə bir dövləti yer üzündən silinməsini açıq şəkildə bəyan edib və Fələstin İsrail məsələsində radikal xətt yürüdür. Onun qonşulara da baxışlarında pozitivlik olsa da, fars millətçiliyi və şiə mühafizakarlığı üstün yer tutur. Onun hakimiyyəti dönəmində Güneydə ciddi etiraz dalğası başlamışdı və həmin etirazlar amansızcasına yatırılmışdı. Etirazlar İranın eyni adlı rəsmi sərgisində soydaşlarımızın ağır şəkildə təhqir olunması bir bəhanə olmuşdu. Mən hesab edirəm ki, Əhmədinejadın seçki marafonuna qoşulmasına əngəl törədilməyəcək və mən onu həmin posta ən şanslı namizəd hesab edirəm. Çünki bu gün İranın həm daxildəki həm də xaricdəki durumu sərt siyasət yürütməyi tələb edir. İranın Ali dini rəhbəri ilə Əhmədinejadın müəyyən fikir ayrılıqları olsa da fundamental məsələlərdə eyni mövqedədirlər".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

**İyunun 7-də Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası Sahibə Qafarovanın sədrliyi ilə öz işinə başladı. Dövlət himninin oxunması ilə başlayan iclasda Sahibə Qafarova əvvəlcə iyunun 5-6-da Bakıda keçirilən TürkPA-nın 13-cü sessiyası ilə bağlı məlumat verdi. Bildirdi ki, quruma sədrlik Türkiyədən Azərbaycana təhvil verilib. Spiker əlavə etdi ki, Azərbaycan hal-hazırda üç quruma, TürkPA-ya, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə və Asiya Parlament Assambleyasına sədrlik edir.**

# Parlament 2024-cü ilin büdcəsinə əlavələrə "hə" dedi

## Milli Məclisin növbədənkənar sessiyasında hökumətin iştirakı ilə mühüm məsələlər müzakirə olundu



Daha sonra hökumətin iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Milli Məclisə təqdim olunan "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsinin ilk oxunuşda müzakirəsinə başlanıldı. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirdi ki, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması, bir sıra infrastruktur təyinatlı layihələrin maliyyə təminatı ilə bağlı əsaslı xərclər, beynəlxalq münasibətlər və digər beynəlxalq fəaliyyət, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, bəzi xidmətlər üzrə verilən subsidiyalarla bağlı xərclər və zəruri hesab olunan digər istiqamətlər üzrə dövlət vəzifələrinin əlavə gəlirlər, mövcud ehtiyatlar və kəsirin genişləndirilməsi hesabına maliyyələşdirilməsi üçün 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılmasına ehtiyac yaranıb. Qeyd etdi ki, 2024-cü ilin dövlət büdcəsi haqqınqa qanun layihəsi qəbul olunarkən dövlət büdcəsi gəlirlərinin 34 173 milyon, xəclərinin 36 763 milyon, dövlət büdcəsi kəsirinin isə 2 590 milyon manat olacağı planlaşdırılmışdı: "Eyni zamanda 2024-cü ildə ÜDM-in real artım tempinin 2.4%, qeyri-neft-qaz ÜDM-nin real artım tempinin 4.6%, inflyasiyanın orta illik səviyyəsinin 5.3% olacağı proqnozlaşdırılmış, dövlət büdcəsində hesablamalar neftin bir barelinin orta illik qiymətinin 60 dollar səviyyəsinə uyğun həyata keçirilib. Bu ilin yanvar-aprel aylarında Azərbaycan iqtisadiyyatında yaradılmış əlavə dəyər 38.2 mlrd. manat olmuş, iqtisadi artım tempi proqnozlaşdırılan illik 2.4%-ə qarşı 3,8% təşkil edib. Artım tamamilə qeyri-neft/qaz sektoru hesabına təmin edilmiş, bu sektorun artımı proqnozlaşdırılan illik 4.6%-lik artıma qarşı 7,7%, neft-qaz sektorunda isə proqnozlaşdırılan illik 1.7%-lik azalmaya qarşı 0,1 faizlik azalma qeydə alınıb. İxrac idxalı 2.5 milyard dollar üstələyib. "Azeri Light" markalı xam neftin bir barelinin orta ixrac qiyməti 87,3 ABŞ dollarına bərabər olub ki, bu da 2024-cü ilin təsdiq edilmiş büdcə parametrlərinin hesablanması zamanı götürülmüş qiymətdən 27,3 ABŞ dolları çoxdur".

T.Mirkişili əlavə etdi ki, yenidən baxılan "Büdcə zərfi"ndə hesablamalar neftin bir barelinin orta illik qiymətinin təsdiq olunmuş layihədə nəzərdə tutulan qiymətin 15 dollar artırılaraq, 75 dollar səviyyəsinə uyğun həyata keçirilib: "2023-cü ilin yanvar-aprel aylarında inflyasiya tempi azalmaqda davam etmiş, orta illik inflyasiya 0,7%-ə bərabər olub, istehlak səbətinin hər 3 alt qrupu üzrə təkrəqəmli qiymət artımı izlənib. Təqdim edilmiş məlumatlara əsasən, ilkin proqnozlar zamanı 2024-cü ildə orta illik inflyasiyanın 5,3% olacağı nəzərdə tutulsa da, yenidən baxılma zamanı bu göstəriciyə düzəlişlər edilmiş və orta illik inflyasiyanın cari ildə 2,7% olacağı proqnozlaşdırılıb".

Maliyyə naziri Samir Şərifov çıxışında bildirdi ki, bu ilin yanvar-aprel aylarında Azərbaycanın dövlət büdcəsində qeyri-neft-qaz sektorundan gəlirlərin payı 51,8 % çox olub ki, bu da proqnozdan 1,5 faiz bəndi çoxdur: "4 ay ərzində büdcənin qeyri-neft-qaz gəlirləri 6,867 milyard manat təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 6,8 % çoxdur". Nazir həmçinin qeyd edib ki, cari ilin yanvar-aprel aylarında Azərbaycanın dövlət büdcəsinin gəlirləri 13,259 milyard manat, xərcləri isə 10,75 milyard manat təşkil edib. Bunlar, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 9 % və 20,4 % çoxdur. Son nəticədə 4 ayda büdcədə 2,509 milyard manat profisit yaranıb. Bu isə 1 il əvvələ nisbətən 22,4 % azdır.

S.Şərifov dedi ki, Azərbaycanın yenidən baxılan 2024-cü il dövlət büdcəsində gəlirlər üzrə proqnozun 48,9 %-i neft-qaz, 51,1 %-i isə qeyri-neft-qaz sektorunun payına düşəcək: "Beləliklə, qeyri-neft-qaz sektorunun xüsusi çəkisi 0,8 faiz bəndi artırılıb. Yenilənmiş büdcədə Dövlət Neft Fondundan transfertin məbləği dəyişdirilməyib. Prioritet istiqamətlərdən Qarabağda və Şərqi Zəngəzurda tikinti, bərpa və yenidən qurma işləri üçün 1,4 milyard manat, müdafiə və təhlükəsizlik tədbirləri üçün 800 milyon manat, infrastruktur layihələri üçün isə 977 milyon manat nəzərdə tutulub. Büdcə xərclərinin 38,7 %-i əsaslı xərclər, 58 %-i cari xərclər, 3,3 %-i isə dövlət borcuna xidmət xərcləri olacaq".

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov qanuna dəyişiklik edilməsi ilə bağlı qanun layihəsinin müzakirəsi zamanı çıxış edərək dəyişikliklərə rəhbəri olduğu qurumun rəyini təqdim etdi. V.Gülməmmədovun sözlərinə görə, son illər Azərbaycanın dövlət büdcəsində aparılan dürüstləşmələr arasında ilk dəfədir ki, büdcə kəsiri ilkin proqnoza nisbətən bu qədər - rekord məbləğdə - artırılır. V.Gülməmmədov bildirdi ki, Azərbaycanın yenidən baxılma ilə 2024-cü il büdcəsinin kəsirinin 764,3 milyon manat məbləğində böyüdülməklə 3 milyard 354,3 milyon manata çatdırılması nəzərdə tutulub. Kəsirin artımının 600 milyon manatı daxili borclanmadan cəlb olunan vəsait, 105,9 milyon manatı vahid xəzinə hesabının sərbəst qalığı və 58,4 milyon manatı Məqsədli Büdcə Fondlarının vəsaitlərinin qalığı hesabına təmin ediləcək. Kəsirin cari ilin sonuna gözlənilən ümumi daxili məhsula nisbəti 2,8 % olacaq.

"2024-cü ilin ötən dövrü üzrə ölkə iqtisadiyyatının artım templəri nəzərə alınmaqla əhalinin sosial rifah halının yüksəldilməsi istiqamətində aparılan ardıcıl tədbirlər icmal büdcənin mühüm tərkib hissəsi kimi "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklərin edilməsini zəruri edib". Bunu isə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev söylədi. Komitə rəhbəri bildirdi ki, "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklərin edilməsinə ehtiyacın yaranması əsasən dövlət sosial müdafiə fondunun gəlir mənbələri üzrə məcburi dövlət sosial sığorta haqlarında daxilolmaların faktiki icrasının yüksək artımla yerinə yetirilməsi ilə əlaqədardır: "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən 2023-cü ildə təqdim edilmiş məlumatlarda 2024-cü il üçün ilkin olaraq orta aylıq əməkhaqqının proqnoz göstəricisi 980,0 manat göstərilmiş, dəqiqləşdirilmiş makroiqtisadi göstəricilərə əsasən isə bu göstəricinin 990,0 manat olacağı proqnozlaşdırılır. Belə ki, qeyri-büdcə sektorunda əməkhaqqı artımları, qeyri-büdcə sektoru üzrə məcburi dövlət sosial sığorta haqlarının artımını şərtləndirir. Bunu nəzərə alaraq, Dövlət sosial müdafiə fondunun 2024-cü il üçün büdcəsində qeyri-büdcə sektoru üzrə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolma məbləği dürüstləşdirilərəkmövcud 3.387,1 milyon manatdan 190,0 milyon manat artırılaraq3.577,1 milyon manata çatdırılması məqsədəmüvafiq hesab olunur. Eyni zamanda əmək pensiyalarının ödənilməsi xərclərinin məbləği 25,0 milyon manat artılaraq 6500,0 milyon manatdan 6525,0 milyon manata çatdırılması təklif olunur".

M.Quliyev qeyd etdi ki, bununla yanaşı, Fondun aparatının və yerli bölmələrinin saxlanılması xərci 5,0 milyon manat artırılaraq 135,1 milyon manata çatdırılıb, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması üzrə xərcləri 30,0 min manat artırılıb: "Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin (transfert) məbləği 160,0 milyon manat azaldılaraq 1232,0 milyon manat təşkil edəcək. Beləliklə, Fondun xərcləri 30,0 milyon manat və ya 0,4 faiz artırılaraq 6949,9 milyon manata çatdırılıb. Yekun olaraq, DSMF büdcəsinin 2024 cü il üçün dürüstləşmiş gəlirləri və xərcləri 30 milyon manat artaraq 6.949.860 min manat təşkil edəcək".

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi. Qanun layihəsinə əsasən, yenidən baxılma ilə 2024-cü il dövlət büdcəsində gəlirlər 36353,0 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 2180,0 milyon manat və ya 6,4 faiz çoxdur. Yenidən baxılma ilə 2024-cü il dövlət büdcəsində xərclər 39707,3 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 2944,3 milyon manat və ya 8,0 faiz, 2023-cü ilin faktiki icra göstəricisi ilə müqayisədə isə 3249,4 milyon manat və ya 8,9 faiz çoxdur.

İclasda "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı. Deputat Razi Nurullayev çıxışında bildirib ki, məşğulluğun artırılması üçün edilən bu dəyişikliklər çox yaxşıdır və bu layihə ilə bağlı zəhməti keçən hər bir kəsə təşəkkür etdi: "Bununla bərabər, dəyişikliklərdən irəli gələn müddəaların həyata keçirilməsi üçün infrastruktur zəifdir və bir çox rayon və şəhərlər bu dəyişikliklərdən yararlana bilməyəcəklər. Bu dəyişikliklərin səmərəsini görmək üçün yüksək ixtisaslı peşə məktəblərinə, peşə tədrisinə və yeni peşə ixtisaslarına ehtiyac var". R.Nurullayev deyib ki, apardığı araşdırmanın nəticəsinə görə, ölkədə mövcud olan peşə məktəblərinin yarıdan çoxu ən bərbad vəziyyətdədir: "İnfrastrukturu yoxdur və təchizatı da sıfırdır. Faktlarla danışım. Deputatı olduğum İmişli şəhərində peşə məktəbi uçub-dağılıb və mən orada görüş keçirib bunu sosial media hesablarında da paylaşmışam. Səbəb budur ki, peşə məktəblərinin təmirinə, təchizatına cüzi vəsait ayrılır. Mən bunu başa düşmürəm və qəbul da etmirəm. Peşə təhsili işsizliyin aradan qaldırılması, kadrlara olan ehtiyacın təmin edilməsi üçün ən vacib amilidir".

Deputat Emin Hacıyev Qarabağa dair Elmi Araşdırmalar Mərkəzinin yaradılmasını təklif etdi. Bildirdi ki, bu Mərkəz yalnız Qarabağın tarixini deyil, coğrafi, təbii ehtiyatlar, musiqi, mədəniyyət, bioloji, antropoloji araşdırmaları və sair sahələrini də əhatə edə bilər: "Hesab edirəm ki, Şuşada yaxud Xankəndidə belə bir Mərkəzin yaradılmasının yaxın zamanlarda reallaşdırılmasının əsl vaxtıdır. Bu, Qarabağın resurslarından istifadənin keyfiyyətinin təminatına, ermənі yalanlarının ifşasına, Azərbaycan - Qarabağ həqiqətlərini elmi nəzərdən dünya ictimaiyyətinə çatdırılmasına, eyni zamanda həmin bölgədə elmi mühitin möhkəmlənməsinə töhfə verər". E.Hacıyev əlavə edib ki, bu elmi tədqiqat Mərkəzi həm də Qarabağ Universiteti ilə simbioz - tandem şəkildə işləyə və qarşılıqlı fayda verə bilər: "Həm də o baxımdan ki, tələbələr buradakı tədqiqatlara cəlb oluna bilər və praktiki olaraq elmi tədqiqatların işində iştirak edə bilərlər".

Deputat Azay Quliyev isə "Məşğulluq haqqında" qanun layihəsinin müzakirəsi zamanı vakansiya ilə bağlı yanlış məlumat verən qurumları tənqid etdi. Bildirdi ki, idarə, müəssisə və təşkilatlar boş vakant iş yerləri barəsində Məşğulluq Agentliyinin vakansiya bankına yanlış məlumat yerləşdirirlər, bundan başqa bəzi işəgötürən qurumlar tərəfindən iş axtaranlara süni maneələr yaradılır və onlar süründürməçiliyə məruz qalırlar: "Beləliklə, vətəndaşların işlə təmin olunması istiqamətində dövlətin yaratdığı mexanizm və alətlərin tam gücü ilə işləməsinə problem yaradılır". A.Quliyev aidiyyəti qurumun rəhbərliyinə xitabən təklif edib ki, bu məsələ ciddi araşdırılmalı, vakansiya ilə bağlı yanlış məlumat verən və ya iş axtaranları incidən müəssisə, təşkilat və idarələrə qarşı cərimə sanksiyası tətbiq edilməlidir.

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# “Ərazì mübadìləsì nəzərì baxımdan bəlkə mümkündür, amma...” - deputat

**“Bakı və İrəvan bəzi sərhəd ərazilərinin mübadiləsini apara bilər”.**
**Bunu Ermənistan hökumətinin nümayəndəsi Qor Tsarukyan Ermənistan İctimai Televiziyasına müsahibəsində bildirib.**

“Referendum keçirilə bilər və çox güman ki, keçiriləcək, əgər tərəflər bəzi ərazilərin, məsələn, Voskepar, Berkaber üçbucağı və digərlərinin mübadiləsi barədə razılığa gəlsələr”, - o deyib.

Qeyd edək ki, Tsarukyanın haqqında danışdığı sahələr bir-birinə yaxındır. Onların mübadiləsi sərhədi məntiqli edir. Məsələn, Qazaxdan Məzəm kəndinə, sonra Quşçu Ayrıma yol daha Ermənistan ərazisindən keçməyəcək. Eyni şey Voskepardan Kirantsa gedən yola aiddir. “Turan”ın məlumatına görə, görünür Bakı və İrəvan Azərbaycan və Ermənistan SSR-in keçmiş sərhədlərini bərpa etmək və bununla da onları daha rahat və məntiqli etmək üçün ərazi mübadiləsi aparmaq qərarına gəlib. Tsarukyan həmçinin bildirib ki, Ermənistan və Azərbaycanın beynəlxalq hüquqi müqavilə əsası var və bunun əsasında demarkasiya aparmağa başlayıblar. Sərhədlərin müəyyənləşdirilməsi SSRİ Baş Qərargahının 1974-1978-ci illər üçün xəritələrinə əsasən aparılır. Onun sözlərinə görə, Kirantsda iki yaşayış evi, bir neçə tikili və bir sıra torpaq sahəsi Azərbaycan tərəfinə keçib. Eyni zamanda, 4 Azərbaycan kəndinin müəyyən əraziləri Ermənistana keçib. O bunu SSRİ dövründə kənd sovetləri sədrlərinin, kolxoz direktorlarının tez-tez ərazi mübadiləsi aparması ilə izah edib ki, bu da inzibati sərhədlərdə əks olunmayıb. Tsarukyan onu da qeyd edib ki, delimitasiya prosesində məzmunu açıqlanmayan bir çox “həssas” məsələ var. “Ancaq proses birtərəfli olmayıb, qarşılıqlı güzəştlər olub”, - o əlavə edib.

Erməni rəsmi nümayəndəsinin dedikləri nə dərəcədə həqiqətə yaxındır? Bakı doğrudanmı ərazi mübadiləsinə hazırlaşır? 1974-1978-ci illər üçün xəritələr nə xəritələrdir?

Deputat Hikmət Babaoğlu yaranan bu suallarla bağlı “Yeni Müsavat”a danışdı. Onun sözlərinə görə, Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası və demarkasiyası 19 aprel 2024-cü ildən başlayan siyasi prosesin məntiqi olaraq davam edir: “Bu proses çox həssas bir proses olduğu üçün yalnız yüz faiz razılaşdırılan və heç bir mübahisə doğurmayan məsələlər ictimaiyyətə açıqlanır. Hesab edirəm ki, bu çox doğrudur.



**Hikmət Babaoğlu:** “Bu prinsipial məsələdə razılıq əldə olunarsa...”



**Asif Nərimanlı:** “Ermənistan bu mübadiləni əsasən anklavlara görə istəyir, çünki...”

Çünki əks təqdirdə hər iki ictimai rəydə emosional reaksiyalara səbəb ola bilər. Ümumi nəzəri kontekstdə bütün hallarda dövlətlər arasında, yeni şərti A və B dövləti arasında aparılan delimitasiya və demarkasiya prosesində sadəcə xəritə materialları deyil, həm də bir siyasi iradə mühüm əhəmiyyət kəsb edən bir faktordur. Nəzərə almaq lazımdır ki, Ermənistan və Azərbaycan arasında sərhədlər demək olar ki, tarix boyu heç vaxt dövlət sərhədləri olmayıb. Ona görə də, bu vəziyyət prosesi bir qədər də gərginləşdirir. Belə olan halda Qor Tsarukyanın dediyi siyasi iradə məsələsidir. Ərazi mübadiləsi nəzəri baxımdan bəlkə mümkündür. Amma Azərbaycan tərəfi bu barədə heç bir fikir bildirməyib. Rəsmi Bakının mövqeyi belə olub ki, eksklav kəndlər, yeni bizə aid olub, amma bizim ərazimizdə olmayan kəndlərlə bağlı danışıqlar prosesində müəyyən razılaşmalar əldə edilə bilər. Bu fikir özü-özlüyündə həmin kəndlərdə kommunikasiyaların hansı formada və hansı şəkildə yaradılması məsələsi haqqında müəyyən fikir irəli sürməyə şərait yaradır. Düşünürəm ki, danışıqlar prosesində müəyyən mərhələdən sonra artıq bu, real danışıq predmetinə çevrilə bilər. Məsələ ondadır ki, hazırda demarkasiya prosesinin başa çatmasına mane olan əsas məsələ Azərbaycanın 4, Ermənistanın isə 1 kəndinin eksklav olmasında deyil. Əsas məsələ Zəngəzur dəhlizinin açılması ya da ermənilərin dediyi kimi, “Meğri yolunun açılması” və burada azərbaycanlıların ərazilərinin birindən digərinə, yəni Azərbaycanın qərbindən Naxçıvana doğru maneəsiz keçməsidir. Mənə elə gəlir ki, burada razılıq əldə olunarsa, digər qalan məsələlərdə razılığın əldə olunması mümkündür. Digər tərəfdən onu da qeyd edək ki, sovet dövrü xəritələrində bir sıra hallarda hüquq yaratmayan aktlar və qərarlar əsasında Azərbaycanın torpaqları güzəştə gedilib. Ona görə də, hər şeydən öncə mənə elə gəlir ki, komissiya üzvləri bunu araşdırmalıdırlar. Onu müəyyənləşdirməlidirlər ki, Azərbaycanın 4 kəndi necə eksklav olub. Nəyin və hansı qərarların əsasında? Çünki Azərbaycanın tələblərindən biri də hüquq yaradan əsaslarda sərhədlərin delimitasiya və demakrasiya edilməsidir. Ona görə də, düşünürəm ki, hazırda bu məsələləri müzakirə etmək bir qədər tezdir. Ancaq bu məsələdə optimistəm. Hesab edirəm ki, Zəngəzur yolu və yaxud dəhlizi, yaxud da ermənilərin dediyi kimi, adı nə olursa olsun, Meğri yolu və ya dəhlizi kimi bu prinsipial məsələdə razılıq əldə olunarsa, digər qalan məsələlərdə bu və ya digər şəkildə razılıq əldə etmək mümkün olar".

Siyasi analitik Asif Nərimanlı erməni tərəfin məqsədlərinə toxundu: “Qazaxın 4 kəndinin qaytarılmasından sonra Ermənistan tərəfi bu məsələləri intensiv şəkildə gündəmə gətirir. Məqsəd həm ictimai rəydəki ittihamlara cavab vermək, həm də sərhədin delimitasiyasını öz maraqlarına uyğunlaşdırmaqdır. Birincisi, Kirants istiqamətində Ermənistanın nəzarətinə keçən ”ərazilər"in 20 hektara yaxın olduğu deyilir. Rəsmi İrəvan bunu Azərbaycanın verdiyi kimi təqdim etsə də, əslində bu ərazilər daha əvvəl neytral bölgə kimi istifadə olunub və minalanmış ərazilərdir. Kirants kəndinin sakinləri də bildirir ki, bu ərazilər kəndə məxsus olub, indi Ermənistan hakimiyyəti ləğv olunan neytral ərazini Azərbaycanın “güzəşti” kimi göstərir. İkincisi, ərazilərin mübadiləsi Ermənistan tərəfindən davamlı gündəmə gətirilsə də, rəsmi Bakının bu haqda heç bir mövqeyi yoxdur. Ermənistan bu mübadiləni əsasən anklavlara görə istəyir, çünki onların iddia etdikləri Başkəndin verilməyəcəyini bilirlər, digər tərəfdən, ermənilər gəlib burada yaşamayacaq. Ermənistandakı anklavlar - Kərki və Qazaxın üç anklav kəndi qaytarılsa, bu, strateji baxımdan da Azərbaycanın xeyrinədir. Buna görə mübadilə edilməsini istəyirlər. Mübadilənin demarkasiya olunan Qazax-Tavuş sərhədində - Voskepar, Berkaber üçbucağı və digərlərində edilməsi isə presedent yaratmaq məqsədi də daşıya bilər. Yəni sərhəd xəttində mübadilə presedenti yaratmaqla bunu sonradan anklavlar məsələsində də tətbiq etməyi istəyə bilərlər. Üçüncüsü, 1974-1978-ci illər üçün xəritələri Ermənistanın sərhədin hansı prinsiplə müəyyənləşməsi planının tərkib hissəsidir. İrəvan delimitasiya-demarkasiya prosesinin siyasi sənədi kimi Alma-Ata bəyannaməsinin, praktiki olaraq da SSRİ dağılanda mövcud olan xətlərin əsas götürülməsini istəyir. SSRİ dağılanda mövcud olan xətlər sonuncu xəritələrə uyğundur, 1974-78-ci il xəritələri də son xəritələrdir. Qazax-Tavuş xəttində bu prinsiplər əsas götürülsə də, sərhədin digər hissələrində fərqli yanaşma var. Ermənistan sərhədin bütün hissələrini sonuncu olan bu xəritələrə uyğun müəyyənləşməsindən yanadır, çünki bu, onlara sərhəddə üstünlük qazandırır. Azərbaycan isə bunu qəbul etmir".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

## Gömrük buraxılış məntəqələri ilə bağlı yeni layihələr hazırlanıb




**Gömrük-sərhəd buraxılış məntəqələrinin buraxılış qabiliyyətinin artırılması, infrastruktur imkanlarının daha da genişlənməsi və maddi-texniki təchizat səviyyəsinin daha da yüksəldilməsi istiqamətində kompleks tədbirlər planımız var.**

APA xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Dövlət Gömrük Komitəsinin Gömrük Tənzimlənməsi İdarəsinin rəisi Cəfər Quluzadə deyib.

O qeyd edib ki, ölkənin tranzit cəlbediciliyinin artırılması istiqamətində bir sıra gömrük-sərhəd buraxılış məntəqələrində rekonstruksiya və restavrasiya işlərinin aparılması nəzərdə tutulub:

“Komitə bütün gömrük-sərhəd buraxılış məntəqələrində yenidənqurma və bərpa işlərini dəstəkləyən bir sıra layihələri artıq hazırlayıb. Hazırda onların aidiyyəti dövlət orqanları ilə razılıq prosesi gedir. Bəzi layihələr demək olar ki, hazırdır. Zəngilan rayonu ərazisində yerləşən Ağbənd gömrük-keçid məntəqəsi ilə də bağlı proseslər hazırda razılaşdırılır. Komitənin gömrük-sərhəd buraxılış məntəqəsində tənzimləmə ilə bağlı standartları var. Bu standartlara uyğun olaraq layihəni hazırlayıb müvafiq prosedurlardan keçirməklə işləri davam etdiririk. Gömrük-sərhəd buraxılış məntəqələrinin hamısında yeni tendensiya olaraq daha çox buraxılış imkanlarının olmasını və sahəvi tənzimlənmənin qurulmasını nəzərdə tutumuşuq. Yeni layihələrimizi də müasir beynəlxalq standartlara uyğun qururuq. Beynəlxalq standartlarda təchizatla da bağlı normalar var. Bu normaları da nəzərə alırıq. Bunlar kompleks tədbirlərdir. Bütün bu tədbirlər yekunlaşdıqdan sonra, tikinti işləri həyata keçiriləcək. Artıq Xanoba gömrük-sərhəd buraxılış məntəqəsi istifadəyə verilib. İstəyirik ki, həmin tendensiyanı digər sərhəd-buraxılış məntəqələrində də həyata keçirək”.

O bildirib ki, bu layihələrin hazırlanması zamanı Orta Dəhliz üzərində yerləşən gömrük-sərhəd buraxılış məntəqələrinin yenidənqurma işləri prioritet hesab edilir:

“Ələt də bu dəhliz üzərində yerləşir. Ələtin infrastruktur imkanı kifayət qədər böyükdür. Orda gömrük-sərhəd buraxılış məntəqəsi var. Ora ilə də bağlı müəyyən yeni layihələrimiz olacaq. Eynilə Qırmızı-Körpü sərhəd buraxılış məntəqəsində də müəyyən infrastruktur layihələrimiz olacaq. Ümumiyyətlə mövcud infrastrukturu daha səmərəli tənzimləməyə cavab verən, daha çox buraxılış qabiliyyəti olan və sahəvi tənzimləmənin həyata keçirildiyi şəkildə formalaşdırmaq istəyirik. Bununla bağlı çoxlu layihələrimiz var. Hazırda onlar müəyyən razılaşdırma prosesdurlarındadır”.

“Astarada modul tipli buraxılış məntəqəsi açılmışdı. Cənub-Astara gömrük postunun tikintisi ilə bağlı işlər həyata keçirilir. Onun layihəsi yekunlaşmaq üzrədir. Qırmızı-Körpü sərhəd-buraxılış məntəqəsinin yaxınlığında yerləşən ”İpək yolu" - “Abreşumis Qza” gömrük postu layihəsi də var. O layihə ilə də bağlı mütəmadi Gürcüstan tərəfi ilə görüşürük. Layihənin texnoloji cəhətdən işə düşməsi ilə bağlı tələblər var. Çünki iki gömrük orqanı, yəni həm Gürcüstan, həm Azərbaycan gömrük orqanları eyni baxış altında işlər həyata keçirəcək. Ona görə də bu istiqamətdə gələcəkdə müəyyən işlərimiz olacaq", - deyə Cəfər Quluzadə əlavə edib.

YENİ MÜSAVAT
N 100 (8473) 8 iyun 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Uşaqların sayı niyə azalır - sosioloqdan ilginc iddia

## Əhməd Qəşəmoğlu: "Hazırda bütün dünyada əhali artımının qarşısını almaq üçün genişmiqyaslı iş gedir"

**Azərbaycanda ötən il uşaqların sayı 2022-ci il ilə müqayisədə 36 min nəfər azalıb. Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Millət vəkili qeyd edib ki, bu, son illər təbii artım fazinin müqayisəli azalması ilə bağlıdır.**

Həmçinin Bakı Tədqiqat İnstitutunun 2005-22-ci illəri əhatə edən hesabatı da bir daha təsdiqləyir ki, ölkədə uşaqların sayı sürətlə azalmağa başlayıb.

Hesabatda qeyd olunur ki, 2005-ci ildə əhalinin 31,8%-ni 17 yaşına qədər uşaqlar təşkil edirdisə, 2022-ci ildə bu göstərici 26,3%-ə düşüb. Azalma özünü daha çox qız uşaqlarının sayında göstərib. Belə ki, bu müddətdə oğlan uşaqlarının sayı 2,1% artdığı halda, qızların sayı 6% azalıb. Bununla da oğlan və qız uşaqları arasındakı gender fərqi 2,5%-dən 3,7%-ə yüksəlib.

Qız uşaqlarının sayının getdikcə azalmasının səbəbləri ilə bağlı artıq uzun illərdir ki, müzakirələr var. Ekspertlər bildirir ki, bunun başlıca səbəbi selektiv abortlardır.

Ümumiyyətlə, Azərbaycanda ən geniş yayılmış cinsi mənsubiyyətə görə ayrı-seçkilik hallarından biri selektiv abortlardır. Bir çox ailələrdə qadınların reproduktiv sağlamlıq hüquqları qorunmur, ailə üzvlərinin istəyinə əsasən qadın hamiləliyi süni şəkildə dayandırmağa məcbur edilir. Bəzən də qadın yalnız qız uşaqları dünyaya gətirdiyi üçün tərk edilir.

Ümumiyyətlə, oğlan uşaqlarına üstünlüyün verilməsi ölkədə mövcud olan gender stereotipləri, oğlan uşaqlarına daha yüksək dəyər aşılayan patriarxal ailə strukturu və sosial normaların təzahürüdür, ölkədə gender əsaslı cins seçiminin kökündə dayanan əsas səbəbdir.

Qız uşaqlarının sayının azalmasının fəsadlarına gəldikdə, mütəxəssislər bildirir ki, bu vəziyyət gələcəkdə ictimai həyatın bütün sahələrində daha kəskin gender fərqi və kişilərin sayının kəskin artması (maskulinizasiya), əmək bazarında qadınların xüsusi çəkisinin azalması, eyni zamanda, zorakı davranış hallarının geniş yayılması nəticəsində ümumi kriminogen durumun pisləşməsi, qızqaçırma, erkən nikahlar, insan alveri və s. bu kimi bir sıra mənfi hallara gətirib çıxara bilər.

Bəs ümumilikdə ölkədə uşaqların sayının ilbəil sürətlə azalmasının səbəbləri hansılardır? Bu vəziyyət gələcəkdə hansı problemlərə gətirib çıxara bilər?

Sosioloqların fikrincə, qadının cəmiyyətdə rolunun




artması, təhsil və karyeraya üstünlük verməsi ailə planlaşdırılması, doğuşların sayının tənzimlənməsinə ciddi təsir göstərir.

Həmçinin səbəblər arasında iqtisadi amillər də vurğulanır. Belə ki, ailələr övladlarının daha sağlam və savadlı, dünyagörüşlü vətəndaş kimi boya-başa çatmasına çalışır ki, bunun üçün də ilk növbədə maliyyə, sosial dayanıqlıq tələb olunur. Bundan başqa, ailələr az uşağa sahib olub, əvəzində övladlarına daha keyfiyyətli həyat və təhsil vermək istəyirlər. Bu baxımdan hazırda əsasən bir və ikiuşaqlı ailələrin sayı çoxdur.

Qeyd olunur ki, təbii artımın aşağı düşməsi gələcəkdə bir çox problemlər ortaya çıxaracaq. Məsələn, əmək bazarında problem yarana, eyni zamanda təbii artım aşağı düşdükcə, paralel olaraq miqrantların sayı arta bilər. Hansı ki, bu da genefondumuza təsir edəcək.

Mövzu ilə bağlı sosioloq Əhməd Qəşəmoğlu "Yeni Müsavat"a danışıb:

"Ümumiyyətlə, hazırda bütün dünyada əhali artımının qarşısını almaq üçün genişmiqyaslı iş gedir. Buna BMT başda olmaqla bir sıra beynəlxalq təşkilatlar da maraqlıdır. Çünki 1969-cu ildə Amerikada aparılan tədqiqatlardan belə məlum oldu ki, dünya əhalisi sürətlə artacaq və bu da ciddi şəkildə iqtisadi problemlər yaradacaq. O vaxtdan beynəlxalq təşkilatlar iş aparır ki, dünyada əhalinin saytı çox da artmasın. Üç istiqamətdə iş gedir - maarifləndirmə yolu, insanları arzuolunmayan hamiləliyin qarşısının alınmağın üsulları öyrədilir, ikinci reproduktiv sağlamlıqla bağlı maarifləndirmədir, digəri isə müharibə və sairədir. Yəni, hazırda dünyada əhalinin sayının artmasının qarşısını almaq üçün müxtəlif layihələr həyata keçirilir.

Daha bir məsələ, insanlar savadlandıqca, dünyagörüşləri artdıqca çoxuşaqlı ailənin tərəfdarı olmur. Düşünürlər ki, həm də öz həyatlarını yaşamalıdırlar. Çox sayda uşağa sahib olub, onların təlim-tərbiyəsi, təhsili, gələcəyi ilə bağlı məşğul olur, sonradan ayılırlar ki, artıq qocalıblar.

Əlbəttə ki, proses özbaşına qoyulsa, gələcək üçün ciddi problemlər yarana bilər. Bu baxımdan hər bir ölkə özü üçün bu sahədə müəyyən strategiyalar, seçməli, fəaliyyət proqramı qumralıdırlar.

Hesab edirəm ki, ən ideal olanı 3 uşaqlı ailə olmaqdır. İnsanlara bunu təbliğ etmək lazımdır. Lakin bu məsələ təkcə valideynlərdən deyil, həm də ölkənin sosial-siyasətindən asılıdır. Bu baxımdan çox təmkinli, savadlı planlar həyata keçirməyə böyük ehtiyac var".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# Avtobuslarda kondisioner və yoluxma problemi

## Həkimlər xəbərdar edir; ictimai nəqliyyatda havalandırma sistemi olmazsa...

**İstilərin düşməsi ilə Bakının marşrut avtobuslarında kondisioner problemi təzədən gündəmə gəlib. Görəsən bu yay problem özünü nə dərəcədə göstərəcək? Paytaxtda standarta cavab verən avtobusların sayı ötən illə müqayisədə artıb, ya azalıb?**

Artıq sərnişinlərdən şikayətlər gəlməyə başlayıb. Hətta iddia olunur ki, keçən yay kondisioner problemi olmayan bəzi avtobuslar artıq bu il "4 təkərli hamam"a çevriliblər. Bəs səbəb nədir? Maliyyə imkanlarının yoxluğu, yoxsa sahibkarların az məsrəflə daha çox qazanmaq istəyi? Axı gedişhaqqına kondisionerdən istifadə də daxildir. Qeyd edək ki, Rusiyada bütün şəhər nəqliyyatında kondisioner kabinələrdə temperaturun +25 dərəcədən çox olmaması ilə bağlı təlimat verilib. Söndürülmüş kondisionerlər təkcə ona görə təhlükəli deyil ki, havasızlıq və istilik ürək-damar xəstəlikləri, eləcə də istilik və günvurma riskini artırır. Ehtiyatsız daşıyıcıların və sürücülərin kondisioneri işə salmaması insanların rahatlığı üçün başqa nəqliyyat növləri - məsələn, taksi seçməsinə və ya şəxsi avtomobil almasına səbəb olur. Bu, sərnişin axınını azaldır ki, nəticədə həm sərnişinlərə, həm də nəqliyyat şirkətlərinin özlərinə ziyan vurur.

AYNA mətbuat katibi Tural Orucov mediaya açıqlamasında bildirilib ki, müntəzəm marşrut xətt avtobuslarında havalandırma, isitmə və sərinləndirmə sistemlərinin olması sərnişinlərin rahatlığı üçündür:"Nazirlər Kabinetinin 73 saylı qərarı ilə təsdiq olunan tələblərdə də bu məsələ xüsusilə qeyd edilib. Hər bir daşıyıcı şirkət istismarında olan avtobuslarda bu sistemlərinin olması və işlək vəziyyətdə saxlanılması üçün məsuliyyət daşıyır. Hər il olduğu kimi, bu il də yay mövsümü başlamazdan əvvəl müntəzəm sərnişindaşıma fəaliyyə-



ti göstərən daşıyıcılara rəsmi qaydada xəbərdarlıq məktubu göndərilib. Onlara avtobuslarda sərinləndirmə sistemlərinin işlək vəziyyətə gətirilməsinə dair göstərişlər verilir. Həmçinin onlara yay mövsümünün iyunun 15-də başlamasına baxmayaraq sərnişinlərin rahatlığı üçün avtobuslarda temperatur göstəricilərinin tənzimlənməsi barədə də tapşırıqlar verilib".

Başqa yandan, kondisioner işlək vəziyyətdə, pəncərələr bağlı avtobusda yol getməyin ziyanlı tərəfinin olduğunu söyləyənlər də var. Hesab edilir ki, əgər salonda bircə yoluxucu xəstə varsa, kondisioner vasitəsilə 10-15 dəqiqə ərzində o hamını yoluxdura bilər. O zaman nə etməli, necə qorunmalı?

Rusiyalı Doktor Bayutina bildirib ki, avtomobilin kondisionerinə məruz qalma pnevmoniyaya səbəb ola bilər. Bir avtomobildə kondisioner sistemindən düzgün istifadə edilmədikdə, xroniki xəstəliklərin, o cümlədən legionellyoz və tonzillitin yaranması və ya kəskinləşməsi mümkündür. Baxım aparılmazsa, kondisionerlər mikroorqanizmlərin çoxalma meydanına çevrilir. Həkimin sözlərinə görə, kondisionerlərdə təkcə bakteriyalar deyil, həm də allergen kimi bronxial astmanın kəskinləşməsinə səbəb olan göbələk sporları da çoxalır. Və cihazın havanı qurutması səbəbindən konjonktivit, rinit, tonzillit və iltihabla əlaqəli digər xəstəliklər yarana bilər. Həkim, əsas xəstələr üçün maşın kondisionerlərindən istifadə edərkən ehtiyatlı olmağı tövsiyə edib, çünki aşağı temperatur qan damarlarının daralmasına səbəb olur ki, bu da təzyiqin və spazmın artmasına səbəb ola bilər. Mütəxəssis deyib ki, kondisionerin işləməsi ilə kabinədəki temperatur arasındakı optimal fərqi və kabinədən kənarda 5-6 dərəcə güclü fərq olmamalıdır; Bu nisbət bir tərəfdən sürücü və sərnişinlərin soyuqdəyməməsinə, digər tərəfdən isə özlərini rahat hiss etməsinə şərait yaradacaq.

İnfeksionist Mərdan Əliyev mövzu ilə bağlı "Yeni Müsavat"a bunları deyib: "Kondisioner insanların həyatını rahatlaşdırır, komfort yaradır. Bu mənada yaxşıdır. Burada diqqət olunmalı məsələ odur ki, insan tərli şəkildə soyuq avtobusa minir və birdən-birə temperaturun dəyişməsi tərləyən adam üçün zərərli ola bilər. Soyuq yerdən, yəni avtobusdan enəndə yenə havanın dəyişməsi insana mənfi təsir göstərə bilər. Amma yay fəsli olduğu üçün yoluxucu xəstəliklərin yayılması ehtimalı azdır. Avtobuslarda fikrimcə ventilyasiya sistemi var, təmiz havanın daxil olmasına da şərait yaradılır. O baxımdan, əgər havalandırma sistemi varsa, virusun yayılması ehtimalı çox azdır. Amma birdən soyuq, isti dəyişilməsi insanların səhhətinə mənfi təsir edə bilər".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (8473) 8 iyun 2024

# Zəngəzur dəhlizi ilə bağlı yeni tarix - İrəvanın inadı Ermənistanı “vurur”

## Ölkəyə neft məhsulları və taxılın hamısı olmasa da, böyük hissəsi Gürcüstan marşrutu üzrə gəlir; hazırda bu istiqamətdə ciddi problemlər Ermənistanda qida qıtlığı və bahalaşma yaradacaq - tək “iqtisadi xilas kəməri” koridorun açılmasıdır...

**“Bir, yaxud bir neçə həftədən sonra Ermənistanda qida qıtlığı yaranacaq, ardınca Zəngəzur dəhlizinin açılması zərurəti ortaya çıxacaq”. “Yeni Müsavat” xəbər verir ki, bu barədə erməni şərhçi Hayk Martirosyan deyib.**

Martirosyan qeyd edib ki, Ermənistana daxil olan neft məhsulları və taxılın hamısı olmasa da, böyük hissəsi Gürcüstan marşrutu üzrə gəlir. “Baş verən son daşqınlar nəticəsində bu marşrut üzrə dəmir yolu bir neçə yerdə ciddi zərər görüb. Dəmir yolunun təxminən 5-6, bəzi məlumatlara görə daha çox hissəsi dağılıb. Loridən quru yollardan keçən magistral da zədələnib. Tavuşdan keçən yol isə Azərbaycanın nəzarətindədir. Dövlət orqanları yolun təmiri barədə düşünməyə başlayıb. Yəni hələ düşünürlər. Bəs dəmir yolu necə olacaq? Dəmir yolundan nəinki hakimiyyət söz açmır, hətta mətbuat da bu haqda heç nə yazmır. Bu vəziyyət tezliklə - bir neçə həftədən sonra Ermənistanda qida qıtlığına səbəb olacaq”, - o deyib.

Erməni şərhçi qeyd edib ki, taxılın quru yolla daşınmaması nəticəsində qiymətlər böyük ölçüdə artacaq: “Həmçinin neft məhsulları bazarı çökəcək. Yanacağın qiyməti astronomik həddə çatacaq, hətta iki, ya üç dəfə arta bilər. Bu vəziyyət Zəngəzur dəhlizinin qaçılmazlığı məsələsini gündəmə gətirir. Yollar bərbaddır, dəmir yolu yoxdur. Buna görə Azərbaycan və Türkiyənin istədiyini verməkdən başqa yol qalmır. Azərbaycandan neft məhsullarının, Türkiyədən isə taxılın alınması zəruriliyi məsələsi eyni vaxtda gündəmə gələcək. Ardınca Zəngəzur dəhlizinin açılması aktuallaşacaq. Bu, Rusiyaya da sərf edən ssenaridir”. Bəs, vəziyyətin deyilən istiqamətdə inkişaf variantı mümkündürmü?

Xatırladaq ki, rəsmi Bakının Zəngəzur dəhlizi ilə bağlı mövqeyi belədir: Azərbaycandan Azərbaycana keçid maneəsiz olmalıdır. Bu barədə 10 noyabr (2020) üçtərəfli kapitulyasiya sənədinin 9-cu bəndində də deyilir. Ermənistan rəhbərliyi, nəhayət, “daşı” ətəyindən tökəcəkmi, yoxsa tezliklə Zəngəzur dəhlizinin İran marşrutunun açılmasının şahidi olacağıq? Axı son hadisələr də göstərdi ki, kommunikasiyaların bağlı qalmasından ən çox Ermənistan əziyyət çəkir. Yeri gəlmişkən, Dəryal sərhəd-keçid məntəqəsi adi qaydada fəaliyyətini bərpa edib. Bu barədə Gürcüstan Daxili İşlər Nazirliyi məlumat yayıb. Hazırda Devdoraki dərəsində təhlükə səviyyəsi minimaldır. Gürcüstan-Rusiya sərhədindəki “Dəryal” keçid məntəqəsi müvəqqəti olaraq bağlanmışdı. İndisə yolun açılması belə o demək deyil ki, Ermənistan üçün Rusiya ilə olan yeganə yolda hər şey hamar gedəcək. Çünki vaxtaşırı Yuxarı Lars yolunun bağlanması, relyefin mürəkkəbliyi, xüsusən qışda qarlı hava şəraiti erməni yük maşınlarının hərəkətini məhdudlaşdırır, hətta yol bağlı qalır. Eyni zamanda, Rusiya bu yoldan Ermənistana qarşı iqtisadi təzyiq, sıxma-boğma elementi kimi istifadə edə bilir. Ona görə də Zəngəzur koridorunun açılması ilk növbədə Ermənistanın özü üçün labüddür.

Professor Qabil Hüseynli “Yeni Müsavat”a bildirdi ki, Ermənistanın ağlı bura qədər imiş. “Onların başına bu oyunlar dəfələrlə gəlməlidir ki, dərs çıxarsınlar. Bir həftədən çoxdur Gürcüstanda leysan yağışlar, əriyən qar Rusiya-Ermənistan əlaqələri sıradan çıxarıb. Belə bir şəraitdə ən ağılsız adam da başa düşür ki, Zəngəzur dəmiryol xətti həm blokadadan çıxmaq, həm də dünyaya açılmaq üçün yeganə həll yoludur. İndi İrəvan tezliklə bu yolun açılmasını bacaracaq ya yox, amma yolun işə düşməsi ilə öz vəziyyətlərinin necə dəyişdiyini görəcəklər”, - Q.Hüseynli vurğuladı. Professor qeyd etdi ki, bu yolların çalışması ilə Ermənistanın logistik imkanları yaxşılaşacaq və öz həyatlarında bunu hiss edəcəklər: “Üstəlik, Azərbaycan və Türkiyə ilə münasibətlər nəticəsində daha böyük üstünlüklər əldə edəcəklər. Əslində, Ermənistanda bu məsələləri yaxşı bilirlər, amma bazarlıq etmək istəyirlər. İndisə elə zaman yaranıb ki, bu məsələni tezliklə həll etməlidirlər. Məncə, Martirosyan kimi şərhçilər düzgün qənaətə gəliblər, bircə vaxtında bu yolu istifadəyə versələr...”

Hüquq müdafiəçisi Xəzər Teyyublu bu məsələdə düyünün Ermənistanın dəhliz statusundan imtinasıdır: “Azərbaycan tərəfi də bu məsələdə israr etmir, amma maneəsiz keçid təmin olunmalıdır, çünki razılaşma var. İkinci əngəl isə koridora Ermənistan tərəfdən nəzarətin kimdə olmasıdır. Yenə də 10 noyabr sənədinə istinad etsək, 9-cu bəndə görə Rusiya sərhədçiləri kontrol etməlidirlər, amma Ermənistan boyun qaçırır və öz sərhəd xidmətinin dayanmasını təkid edir. Qərbdəki müttəfiqləri də Paşinyan hakimiyyətinə dəhlizə nəzarətin Rusiyaya verməməsini bildirirlər. Əgər bu deyilən məsələlər həllini tapsa, nəqliyyat kommunikasiyalarının blokadadan çıxmasında heç bir siyasi-iqtisadi, hüquqi əngəl qalmayacaq”.



Hüquq müdafiəçisinin fikrincə, bütün hallarda yolun açılması qaçılmazdır: “Bu, beynəlxalq logistikadır. Çin, Rusiya, Türkiyə dəhlizin açılmasında maraqlıdırlar. Tək Ermənistanın naz eləməsi, kaprizi ucbatından dəhlizin açılması uzun müddət yubana bilməz. Sadəcə, Rusiya ilə Ermənistan aralarındakı problemi həll etməlidirlər ki, kontrol kimdə olacaq. İrəvan bilməlidir ki, bu yol onun üçün xilas kəməridir, yoxsa həmişə Gürcüstan keçidindən asılı vəziyyətdə qalacaq. Bu da davamlı olaraq Rusiyadan asılılığı artıracaq. Ona görə Moskva istədiyi an İrəvanı sıxışdıra bilər. İndi Rusiya neft və qaz məhsullarının qiymətini qaldırsa, ixracını gecikdirsə, Ermənistan ağır şəraitlə üzləşə bilər. İrandan aldığı qaz onun tələbatını ödəyə bilməz. Uzaq Qərbin isə verdiyi vədlər boş şeylərdir, Ermənistan Rusiya ilə əlaqələrində daima intizamlı olmağa, Türkiyə və Azərbaycanla münasibətləri yoluna qoymağa məcburdur. Ona Avropa Birliyinin, ABŞ-nin verdiyi qəpik-quruş yardım edə bilməz. Bir ölkə ki tək Gürcüstan yolundan asılı vəziyyətdədir, deməli, onun rəhbərliyi ağlını başına yığıb fikirləşməlidir ki, pespektivli alternativ təklif nədən ibarətdir...”

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



# Ermənistandan Azərbaycana keçmək istəyən çexiyalı barədə qərar verildi

**Ermənistandan Azərbaycana qanunsuz keçmək istəyən Çex Respublikasının vətəndaşı Baça Daniel Vladimirin məhkəmə prosesi başa çatıb. APA xəbər verir ki, Şirvan Apellyasiya Məhkəməsində hakim Elçin Xasməmmədovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən ona 1 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilib.**

Qeyd edək ki, Çex Respublikasının vətəndaşı Baça Daniel Vladimir Ermənistan- Azərbaycan dövlət sərhədini qanunsuz keçərkən saxlanılıb və Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi çərçivəsində ona Cinayət Məcəlləsinin 318.1-ci (Azərbaycan Respublikası dövlət sərhədini qanunsuz keçmə) maddəsi ilə ittiham irəli sürülüb.



# Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlılarının Bakıda təlimi

**Azərbaycan, Türkiyə və Gürcüstanın xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə Bakıda keçirilən “Qafqaz Qartalı - 2024" təlimində qarşıya qoyulan tapşırıqlar uğurla icra olunur. APA xəbər verir ki, bu barədə MN-dən bildirilib.**

Təlimin ssenarisinə əsasən, həyəcan siqnalı ilə qaldırılan xüsusi təyinatlılar şərti düşmənin vacib strateji və hərbi obyektlərinə basqın məqsədilə təyin olunmuş məntəqələrə doğru hərəkət edib, əlverişli mövqelərin tutulması üzrə tapşırıqları yerinə yetiriblər.



# Azad insanlar ölkəsi

Zamin HACI
zaminhaci@gmail.com

"Dil azaddır,
El azaddır,
Azad sazlarda
Tel azaddır".
(Süleyman Rüstəm)

**Avropa Şurası üzv ölkələrdə məhbusların sayını açıqlayıb, hər 100 min nəfərə düşən dustaq sayında azad və demokratik Azərbaycanımızın da adı zirvələrdə yer tutur. Hər 100 min nəfərimizdən 244-ü türmədədir. Birinci yerdə də əslində bizimkilərdir. Türkiyə ilə bir millət iki dövlət sayılmırıqmı? Türkiyədə həmin rəqəm 408 nəfərdir. Hətta daha qabağa gedib 2-ci yerdə də payımız, qismətimiz olduğunu yazsam yanılmaram, çünki 2-ci yerdəki Gürcüstanda xeyli soydaşımız ömür sürür. Orada yüz min adama düşən dustaq sayı 256 imiş.**

Özü də maraqlıdır ki, bizdə dustaq sayı ildən-ilə artır. Məsələn, 2021-ci ildə bizdə hər yüz min adama dustaq sayı 208, 2022-də 217 olub. Keçən il isə 244. Güman edirəm bu il 300-ü keçərik. İnşallah. Maşallah. Əlhəmdülillah.

Dustaqların sayının artmasını ölkəmizdə insan hüquq və azadlıqları sahəsində problemlərlə izah etmək olar. Dustaqların az qala yarısı narkotik cinayətləriylə bağlıdır. Alış, satış, istehsal və sairə. Çünki kasıbçılıqdan, işsizlikdən adamlar bilmir nə ilə məşğul olsun. Üstəlik, normal yolla yüksək qazanc əldə etmək imkanları sadə insanlarda nə qədərdir? Heç nə qədər. Fikirləşirlər ki, gedim İrana, bir molladan bir neçə kilo tiryək-zad alıb gətirim, uşağın toyunu eləyək, arvada qızıl alaq, artıq qalsa həccə də gedərik...

Başqa sahələrdə də tutulmaq riski böyükdür. Hətta baltanı dibdən vuraraq açıq yazaq ki, bizdə türməyə düşmək riski olmayan heç bir sahə qalmayıbdır. Müxalifətçisənsə, tutacaqlar. İqtidar tərəfdarısansa, yenə tutacaqlar. Jurnalistsən? Kürdəxanıya xoş gəlmisən! QHT açmısan? Ooo, qazamat sənin üçün çoxdan ağlayır ki...

İcra hakimiyyətində işləyənlər, mədəniyyətdə çalışanlar, voyenkomat işlədənlər, həkimlər, müəllimlər, sürücülər, generallar, şairlər, hakimlər, dələduzlar, dindarlar, ateistlər, krişnaitlər, ermənilər, türklər, fransızlar, əfqanlar, buddistlər, kommunistlər, solçular, sağçılar, bağçılar, dağçılar... Türmələrimizdə hər kəsə yer tapılır.

Hər kəs bizdə qanun qarşısında bərabərdir və istənilən momentdə içəri basırıq. Bax, mən dustaq planında liderliyimizə bu yöndən yanaşmağın tərəfdarıyam. Gör nə qədər qanuni dövlətin sakinləriyik! Norveçdə-İsveçdə-zadda dustaq sayı az ola bilər, çünki qanunu pozurlar, cinayətkarlar azadlıqda gəzir. Həri. Dəli deyiləm ki, statistikanı başqa cür izah edim? Təzəcə amnistiya verilib, yüzə yaxın kamera boş olmalıdır.

Bir nəfər danışırdı, deyir mən içəridə "yatanda" səhiyyə naziri Əli İnsanov da orda idi, Beynəlxalq Bankın müdiri Cahangir müəllim də. Daha bir insana nə lazımdır? İstəyirsən sənə iynə vursunlar, istəmirsən iqtisadiyyatı öyrən. Deyir gəzməyə çıxanda sıramızda generallar, deputatlar da olurdu. Hansı ölkədə bu cür gözəl insan hüquq və azadlıqları vardır? Heyrətamizdir. (Heyrətamiz sözü Ramiz Mehdiyevin adından yaranıb, bunu da biləsiniz).

Elə son xəbərə baxın: Qazaxda Uşaq-Gənclər İnkişaf Mərkəzində külli miqdarda yeyintiyə görə cinayət işi başlanmışdır. Yalandan ştat, vəzifə açıb dövlət büdcəsini əmirmişlər.

Halbuki, Qazaxda uşaq və gənclərin inkişafı yeyintisiz nə cür mümkündür? Axı həmin məktəbi fırladanların uşağı var, gənc övladları var! Qurdala, məlum olacaq maaş 500 manatdır. Həmin vəsaitlə 6 uşağı yemləməli, repetitor tutub oxutmalı, ayda 5 dəfə bambılı toylara getməli, həmçinin hər kvartalda maarifdən gələn "qəmisyanı" yaxşı şəkildə yola salmalıdır. Lakin qanun qanundur. Biz məcburuq adamı içəri basaq. Çünki içəri basanların da uşaqları vardır.

Beləcə, statistika artır. Təbrik edirəm, təki artım olsun!



# Baydendən sensasion SSRİ xəbərdarlığı - mesajın pərdəarxası

## Siyasi şərhçi: "Aydın məsələdir ki, bu perspektiv Cənubi Qafqaza da aiddir"

**"Rusiya prezidenti Putin SSRİ-ni bərpa etmək istəyir və Ukraynadan sonra Moskva qalan qonşularını təhdid edəcək".**

Bu barədə ABŞ prezidenti Co Bayden "Time" nəşrinə müsahibəsində bildirib.

"Sözlərimi yadda saxlayın: əgər biz nə vaxtsa Ukraynanın çökməsinə icazə versək, Polşanın yoxa çıxdığını görəcəksiniz", - siyasətçi xəbərdarlıq edib.

"Bəs Ukraynada sülh necə olmalıdır" sualına cavabında Bayden Rusiyanın qələbəsinin yolverilməz olduğunu qeyd edib. Onun sözlərinə görə, Birləşmiş Ştatlar NATO üzvlüyündən asılı olmayaraq ölkələri dəstəkləyir, lakin Kiyevə kömək etməsə, alyansın özü Rusiya ilə müharibəyə doğru "sürüşkən yola" düşəcək.

"Rusiya Ukraynanı heç vaxt, heç vaxt, heç vaxt işğal edə bilməyəcək. Sülh bu cür görünür. Bu o demək deyil ki, Ukrayna NATO-nun tərkib hissəsidir. Bu o deməkdir ki, özlərini müdafiə edə bilmələri üçün silah tədarük etdiyimiz digər ölkələr kimi, bu ölkələrlə də eyni münasibətdəyik ki, gələcəkdə özlərini müdafiə edə bilsinlər", - Bayden fikrini tamamlayıb.

Məlumdur ki, vaxtaşırı Rusiyadakı hakim partiya üzvü olan bəzi tanınmış yetkililər (Zatulin, Tolstoy və s.) postsovet ölkələrinin, özəlliklə Qazaxıstanın suverenliyini şübhə altına alan bəyanatlar verirlər. Ukraynanın başına gətirilənlər də ortada. Hərçənd iyunun 5-də Sank-Peterburqdakı çıxışı zamanı prezident Vladimir Putin Rusiyanın heç bir imperiya ambisiyasının olmadığını iddia edib.

Bütün hallarda ABŞ prezidenti öz xəbərdarlığında nə dərəcədə haqlı və səmimidir? Putin gerçəkdən SSRİ-ni hansısa şəkildə bərpa etməyimi hədəfləyib? Bu Vaşinqtonun Moskva ilə bir informasiya savaşıdır, ehtimallara əsaslanan xəbərdarlıqdır, yoxsa təhlillərə söykənən SOS siqnalı? Ukraynada hədələrinə çatan Moskvanın konkret Güney Qafqaza, Azərbaycana yönəlik siyasətində hansı dəyişikliklər ola bilər?

Siyasi şərhçi Aydın Quliyev "Yeni Müsavat"a bildirdi ki, ABŞ-la Rusiya arasında birbaşa olmasa da hibrid müharibə getdiyinə görə hər iki tərəfin bəyanatlarında qorxu, şantaj, çəkindirmə elementləri güclüdür. İstər Vladimir Putinin, istərsə də Co Baydenin bəyanatlarında qarşı tərəfi çəkindirmək, qorxutmaq, şantaj etmək əlamətləri sözsüz ki, mövcuddur. Ancaq bu gün xüsusilə də ABŞ-ın bəzi müstəqil ölkələri Rusiya tərəfindən gözləyən işğal təhlükəsi ilə bağlı xəbərdarlıq etməsinin özündə müəyyən qəribəlik var: "Bu qəribəlik ondan ibarətdir ki, əgər Bayden özünü dünyanın super dövlətinin başçısı kimi aparırsa və müxtəlif kiçik, öz iradəsinə uyğun siyasət aparan ölkələri başqa ölkələrin, birinci növbədə Rusiyanın təcavüzündən qorumaq missiyasını öz üzərinə götürürsə, bu missiyanı sona qədər qüsursuz şəkildə aparmalıdır. Elə bu gün Ukraynanın timsalında Co Bayden özündən və dövlətindən asılı olan hər şeyi etməli idi ki, Ukrayna qalib gəlsin və Ukraynadan sonra isə digər ölkələrin Rusiya tərəfindən işğal təhlükəsi mövcud olmasın. Amma əlbəttə əgər Ukrayna-Rusiya müharibəsi Rusiyanın qələbəsi ilə bitərsə, təbii ki, Rusiya indi dayandığı yerdə durmayacaq. Xüsusilə də Ukrayna ilə müharibənin ən qızğın vaxtlarından sonuna qədər Rusiyanın əleyhinə mövqe tutmuş dövlətlərlə bağlı Moskva bu və ya digər dərəcədə qisas siyasəti apara bilər. Ukraynada Rusiya qalib gəlsə bu gün Ukrayna müharibəsində Rusiyanın tərəfində durmayanlardan Rusiya aydın məsələdir ki, qisas almağa çalışacaq. Ona görə də ABŞ prezidentinin bu xəbərdarlığı birinci növbədə Rusiya təcavüzünün potensial qurbanları olan ölkələrə aid deyil, bu, birinci növbədə Baydenin özünün nəticə çıxarmalı olduğu ciddi bir mesajdır ki, ABŞ Rusiya ilə müharibədə Amerikanın tərəfində dayanmış ölkələri sonuna qədər müdafiə eləməyi bacarmalıdır".

A.Quliyevin sözlərinə görə, Baydenin bu bəyanatında əlbəttə müəyyən ciddi əsaslar var. Çünki heç kim dana bilməz ki, Ukrayna müharibəsi Rusiyanın qələbəsi ilə bitəcəyi təqdirdə təbii ki, Rusiyanın aqressiyası yarı yolda dayanmayacaq. Xüsusilə də Ukrayna müharibəsində Rusiyanın əleyhinə bu və ya digər formada fəaliyyət göstərmiş ölkələr Rusiyanın qarşısında hesabat verməli olacaqlar: "Aydın məsələdir ki, bu perspektiv Cənubi Qafqaza da aiddir. Amma Cənubi Qafqazda nəzərə alsaq ki, tək Azərbaycan dövləti Ukrayna-Rusiya müharibəsində beynəlxalq hüquq normalarına söykənən tam bitərəf, ədalətli və şəffaf siyasət aparıb, belə şəraitdə Ukrayna-Rusiya müharibəsinin hansı nəticə verməyindən asılı olmayaraq Azərbaycan üçün perspektivdə hər hansı təhlükə gözlənilmir. Amma açıq deyək ki, Ermənistan üçün bunu söyləmək mümkün deyil. Bu baxımdan Ermənistan üçün dediyimiz perspektiv mövcuddur. Əgər Bayden özü Rusiya ilə müharibədə onun tərəfini saxlamış onun siyasətinə dəstək vermiş ölkələri sona qədər real dəstəkləməyəcəksə, əlbəttə Rusiya da bacardığını edəcək. Ona görə də gələcəyin dəqiq necə olacağı barədə qəti proqnoz vermək çətindir".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 100 (8473) 8 iyun 2024

# Kreml vasitəçiliyə qayıdır, yoxsa ev sahibliyi istəyir? - Bakıdan reaksiyalar...

## Rusiya Azərbaycanla Ermənistan arasında sülh danışıqlarında rol almağa hazır olduğunu yenə xatırladır, Vaşinqton və Brüssel isə ikitərəfli müzakirələr modelini dəstəkləyir - təhlil

**2024-cü ilin Bakı və İrəvan arasında sülh sənədinin imzalanması ili kimi tarixə düşəcəyi dəqiq bilinmir. Optimist mövqelərə, o cümlədən COP-29 sammitinədək bu yöndə real nəticə olacağı haqda ehtimallara rəğmən, sülh sənədi əleyhinə əsas iki əngəlin olduğu bildirilir: delimitasiya üçün ortaq xəritələr və Zəngəzur dəhlizi məsələləri. Hələ ki, tərəflər fasilələrlə də olsa, vasitəçilərsiz danışıqları davam etdirir.**

Bunun bir sübutu da Bakı və İrəvan arasında məktub mübadiləsidir. Yeri gəlmişkən, Ermənistan artıq sülh müqaviləsi layihəsi ilə bağlı Azərbaycanın son təkliflərinə cavab olaraq müqavilə mətninin 9-cu nəşrini göndərib. “Yeni Müsavat” xatırladır ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan bildirib. Amma məktublaşma daha nə qədər zaman alacaq, yoxsa yenə üçüncü tərəfin səmərəsiz vasitəçiliyinə ehtiyac yarana bilər? İrəvan bunun üçün çalışırmı? - Suallar çoxdur.

Və sülh sazişinin yolunda dayanan ağır daşlardan biri də Ermənistan qanunvericiliyində və Müstəqillik deklorasiyasında Azərbaycana ərazi iddialarının yer almasıdır. Ona görə Paşinyan referenduma getməli və qanunvericilik aktlarında dəyişiklik etməlidir. Azərbaycan Prezidenti İlham Əliyev də sülh sənədinin imzalanmasında bu məsələni ən mühüm şərt kimi irəli sürüb. Dövlət başçısı TÜRKPA-ya üzv ölkələrin parlament sədrləri ilə keçirilən görüşdə açıq qalan iki əsas məsələni xatırladıb. Birinci məsələ Azərbaycana ərazi iddiasını ehtiva edən Ermənistan Konstitusiyasıdır, ikinci məsələ ATƏT-in Minsk Qrupunu de-yure mövcudluğunun davam etdirilməsidir. Hərçənd Ermənistanın baş diplomatı Ararat Mirzoyan həddini aşaraq iddia edib ki, guya Azərbaycan da öz konstitusiyasında dəyişiklik etməlidir. Buna azərbaycanlı həmkarı Ceyhun Bayramov lazımı cavabı verdi. Çünki bizim qanunvericilik aktlarında Ermənistana ərazi iddiası irəli sürülmür. Ermənistan isə öz Müstəqillik Bəyannaməsinə və qanunvericiliyinə ona görə dəyişiklik etməlidir ki, orada Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları yer alır. Ona görə nazir Mirzoyanın sözləri də danışıqların gedişinə xələl gətirir və qeyri-konstruktiv mövqe olaraq sülh prosesinə zərər vurur.

Bu arada isə Rusiyanın Ng.ru portalı (“Nezavisimaya gazeta”) da yazıb ki, BMT-nin iqlim dəyişikliyi üzrə beynəlxalq konfransı (COP29) çərçivəsində Bakıda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalana bilər. “Rəsmi Moskva Bakının İrəvanla barışığını dəstəkləməyə hazır olduğunu təsdiqləyir”. Bunu isə Rusiya xarici işlər nazirinin müavini Mixail



Qaluzin deyib. Nazir müavini qeyd edib ki, Rusiya Azərbaycan və Ermənistanın xarici işlər nazirləri - Ceyhun Bayramov və Ararat Mirzoyanın mayın 10-11-də Qazaxıstanda sülh müqaviləsinin hazırlanması məqsədilə keçirilən görüşünü müsbət qiymətləndirir. “Bu, tərəflərə Cənubi Qafqazda sülh və sabitlik yolunda irəliləmək imkanı verdi. Bu istiqamətdə daha bir mühüm addım atılıb”, - diplomat vurğulayıb. O qeyd edib ki, Moskva artıq iki dəfə - 2023-cü ilin may və iyul aylarında Bakı ilə İrəvan arasında sülh danışıqlarına ev sahibliyi edib. “Rusiya bundan sonra da ona iki qardaş xalqın barışmasına hərtərəfli dəstək verməyə, regionun bütün ölkələrinin təhlükəsizliyini, tərəqqisini təmin etmək üçün qarşılıqlı məqbul və balanslaşdırılmış həllərin axtarışına kömək etməyə hazırdır”, - Qaluzin əlavə edib.

Sirr deyil ki, son vaxtlar rəsmi Moskvanın ritorikasında Güney Qafqaza qayıdış istəyi daha qabarıq şəkildə özünü göstərməyə başlayıb. Bu xüsusda Qaluzunin sözlərini Kremlin vasitəçiliyə qayıtmaq istəyi və ya təklifi kimi qiymətləndirmək olarmı? Rusiya vasitəçiliyə, yoxsa Qazaxıstan kimi ev sahibliyi istəyir? Başqa yandan, həqiqətənmi həm Moskva, həm də Vaşinqton və Brüssel Azərbaycan və Ermənistan arasında ikitərəfli danışıqları sonadək dəstəkləyə bilər?

“ABŞ Cənubi Qafqaz xalqlarına sülh və sabitlik gətirən istənilən prosesə kömək etməyə hazırdır”. ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi report-a deyib. Rəsmi nümayəndə vurğulayıb ki, ABŞ dövlət katibi Entoni Blinken, eləcə də ölkənin bir sıra digər rəsmiləri həm Ermənistan, həm də Azərbaycan hökumətlərində yüksək vəzifəli rəsmilərlə daim təmasdadırlar: “Ardıcıl olaraq təkrar etdiyimiz kimi, Birləşmiş Ştatlar sülh sazişi bağlamaq üçün çalışan Ermənistan və Azərbaycanı dəstəkləməyə sadiqdir. Ermənistan və Azərbaycan arasında indiyədək əldə edilmiş irəliləyişdən ruhlanırıq və regionun rifahı üçün iki ölkənin mümkün qədər tez sülh sazişi bağlamasını dəstəkləyirik”. Dövlət Departamenti rəsmisi delimitasiya prosesi ilə əlaqədar Bakı və İrəvan arasında əldə olunmuş razılaşmanı da alqışladıqlarını söyləyib: “Biz Almatı Bəyannaməsinə əsaslanan sərhədlərin delimitasiyası üzrə davamlı irəliləyişi alqışlayırıq. Bu, Ermənistan və Azərbaycan arasında davamlı və layiqli sülh sazişinin bağlanması istiqamətində mühüm addımdır”. Lakin Moskvadan fərqli olaraq, Vaşinqton vasitəçiliyi, yaxud ev sahibliyi təklif etmir, ikitərəfli danışıqlar modelini dəstəkləyir. Həmçinin, Brüssel də hər hansı fikir bildirmir. Əksinə, Ağ Ev rəhbəri Bayden enerji toplantısına yolladığı məktubda sülh sənədinin imzalanması ilə Azərbaycanın və regionun dəyişəcəyini açıqlayıb. Yalnız Rusiyadır ki, hər dəfə öz rolunu yada salır...

“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlunun sözlərinə görə, xarici işlər naziri Ceyhun Bayramov bir neçə gün əvvəl Ermənistan tərəfdən yeni layihə aldığını deyərək orada sülh sazişi layihəsi üzrə açıq qalan məsələlərin sayında azalmanın mövcud olduğunu bildirib: “Ceyhun Bayramov bunu müsbət dinamika kimi qiymətləndirib. O deməkdir ki, Ermənistan hökuməti bəzi israrlarından geri çəkilib. İrəvanın əsas israrı sülh sazişinin mətninə sərhədlərin 1991-ci il Almatı bəyanatına uyğun müəyyənləşdirməsi bəndinin əlavə edilməsidir. Bunun mümkün olmadığı dəfələrlə baş nazir Nikol Paşinyanın diqqətinə çatdırılıb. Nikol Paşinyanın məqsədi Almatı bəyannaməsi vasitəsilə iki il əvvəl itirdiyi strateji yüksəklikləri geri qaytarmaqdır. Bu mümkün deyil. Paşinyan üçün yeganə alternativ Azərbaycanla sülh və ya çərçivə sazişini imzalayıb sərhəd danışıqlarını davam etdirməkdir”.

Ermənistanın Konstitusiya dəyişikliyinə getməsinin vacibliyi barədə Azərbaycanın irəli sürdüyü tələbə gəlincə, siyasi şərhçi Aqşin Kərimov hesab edir ki, bu, bir qədər fərqli mərhələnin mənzərəsi kimi görünür: “Ermənistanda Konstitusiya dəyişikliyi yekun sülhün təmini üçün alternativ müsbət istiqamət aça bilər. Buna görə də bu fikir daha məntiqli görünür ki, Ermənistan sülh müqaviləsi imzalanana qədər Konstitusiyasını dəyişdirsin.

Ancaq bu ssenari də ağlabatan səslənir ki, Azərbaycanla Ermənistan arasında mütləq sülh üçün çərçivə sənədi imzalanır, ardınca Ermənistan Konstitusiya dəyişikliyinə gedir, daha sonra isə Bakı ilə İrəvan arasında final sülh sazişi imzalanması istiqamətində danışıqlar yeni mərhələyə adlayır. Bütün pozitiv dinamikaya və proqnozlaşdırıla bilən mümkün müsbət tendensiyalara rəğmən, sülh gündəliyinin İrəvanın bəzi qaranlıq siyasəti nəticəsində kənar güclərin müdaxiləsinə məruz qalmaq riskləri də qalmaqdadır".

Siyasi ekspert Məhəmməd Əsədullazadə Rusiyadan verilən mesajlara baxmayaraq, vasitəçiyə ehtiyac olmadığını düşünür. Onun fikrincə, aparılan bu danışıqlar bir presedent yaradıb ki, moderatorsuz da sülh mətnini razılaşdırmaq mümkündür: “Azərbaycan və Ermənistan arasında oktyabrda çərçivə sazişi imzalanması mümkündür. Hər iki tərəf danışıqlarda mühüm irəliləyişlər əldə edib. Çərçivə sazişi Qazaxıstanda imzalana bilər. Sazişə əsasən Zəngəzur dəhlizinin Ermənistanın nəzarətində olması ilə Azərbaycan vətəndaşlarının keçidində xüsus imtiyazların tanınması əks olunur. Sərhədlərin delimitasiya və demarkasiyası prosesinin aparılması və yekun sülh müqaviləsinə kimi tərəflər danışıqlar aparacaq. İki dövlət sərhədində hər iki tərəfdə sərhəd qoşunları yerləşəcək”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**




## Rusiya XİN: “Belarusa qarşı xarici təcavüz RF-yə hücum kimi qiymətləndiriləcək”

**Belarusa qarşı xarici təcavüz bütün nəticələri ilə Rusiya Federasiyasına qarşı hücum kimi qiymətləndiriləcək. APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova dünən keçirdiyi brifinqdə" Litva XİN rəhbərinin Ukrayna Belarusa zərbə endirə bilər" bəyanatına münasibət bildirərkən deyib.**

Qeyd edək ki, Litva Xarici İşlər Nazirliyinin rəhbəri hesab edir ki, Belarus ərazisində Rusiya ilə əlaqəli “hərbi hədəflər” olarsa, Ukrayna bu ölkənin ərazisinə zərbə endirə bilər.

YENİ MÜSAVAT
N 100 (8473) 8 iyun 2024

**Qlobal ticarət yollarının yenidən çizilməsi beynəlxalq güclərin yeni yolların üzərində yerləşən ölkələrə diqqətini birə-beş artırıb. Xüsusilə Rusiyanın Ukraynaya hücumundan sonra Asiyadan Avropaya alternativ ticarət yolunun təmini baxımından, nəzərlər Mərkəzi Asiya və Cənubi Qafqaza yönəlib. ABŞ başda olmaqla Qərb dünyası bu ərazilərdən keçməklə Asiyadan Avropaya yüklərin daşınmasını nəzərdə tutan Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə(Orta Dəhliz) nəzarəti təmin etməyə çalışır. Bunun üçün müxtəlif beynəlxalq təşkilatların imkanlarından bəhrələnmək üçün addımlar atılır. Belə təşkilatlardan biri də Ümumdünya Ticarət Təşkilatıdır(ÜTT).**




# Azərbaycan ÜTT-yə niyə qoşulmur? - ləngimə səbəbləri

## Dəyişən şərtlər rəsmi Bakının qısamüddətli deyil, uzunmüddətli perspektivi nəzərə alaraq addım atmasını zəruri edir

Qlobal ticarət qaydalarını tənzimləyən bu təşkilat son vaxtlar Mərkəzi Asiya və Cənubi Qafqaza diqqətini artırıb. Arxada qoyduğumuz həftə ərzində təşkilatın baş direktoru Nqozi Okonyo-İveala hər iki bölgəyə səfər edib. Mərkəzi Asiyada Özbəkistanda müxtəlif görüşlər keçirən baş direktor əsasən Daşkəndin ÜTT-yə üzvlüyü məsələsinə xüsusi diqqət yetirib. 1994-cü ildən üzvlük üçün müraciət edən Özbəkistan yalnız 2019-cu ildən aktiv danışıqlar mərhələsinə başlayıb. Ölkə prezidenti Şavkat Mirziyoyev Özbəkistanın ÜTT-yə üzvlüyü prosesinin maksimum qısa müddətdə yekunlaşmasında maraqlı olduğunu açıqlayıb, işçi qruplar səviyyəsində ardıcıl görüşlər, müzakirələr aparılır.

ÜTT baş direktoru Daşkənddən Bakıya gələrək, burada Prezident İlham Əliyev, iqtisadiyyat naziri Mikayıl Cabbarovla görüşlər keçirib. Rəsmi məlumata görə, ÜTT rəhbərini Prezident İlham Əliyev qəbul edib: "Görüşdə Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxilolma prosesi ilə bağlı fikir mübadiləsi aparılıb. Qonaq Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətləri vurğulayıb. COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran Ümumdünya Ticarət Təşkilatının baş direktoru bu tədbir çərçivəsində Ticarət və Sərmayə Gününün təşkil edilməsi ilə bağlı təşəbbüsü dəstəklədiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Söhbət zamanı ölkəmizlə Təşkilat arasında əməkdaşlığın imkanları müzakirə olunub".

İqtisadiyyat naziri Mikayıl Cabbarov isə facebook hesabında ÜTT baş direktoru ilə görüşün mövzusunun üzvlüklə bağlı olduğunu yazıb: "Ümumdünya Ticarət Təşkilatının (ÜTT) baş direktoru Nqozi Okonyo-İveala ilə görüşdə Azərbaycanın təşkilata üzvlük prosesi müzakirə edilib.vAzərbaycan və ÜTT arasında əlaqələrin inkişaf perspektivləri, ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan işlər, regional və qlobal tərəfdaşlarla qurulmuş sıx ticarət əlaqələri və investisiyaların aktiv təşviqi barədə danışdıq. COP29 çərçivəsində tərəfdaşlıq imkanlarını nəzərdən keçirdik".

Qeyd edək ki, ÜTT əsası 1947-ci ildə qoyulmuş Tariflər və Ticarət üzrə Baş Sazişin (TTBS) bazasında 1995-ci ildə yaradılıb. Dünya ticarətinin 98 faizdən çoxu ÜTT-yə üzv ölkələr tərəfindən həyata keçirilir. ÜTT çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət əlaqələrinin tənzimlənməsini həyata keçirir. Təşkilatın normativ-hüquqi bazasını çoxtərəfli ticarət sazişləri təşkil edir. Bu sazişlər əmtəə və xidmətlərlə ticarəti, əqli mülkiyyət, ticarət siyasətinin icmalı və mübahisələrin həlli məsələlərini tənzimləyir. ÜTT-nin əsas məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılmasıdır ki, bu da iqtisadi inkişafın sürətlənməsi və insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına gətirib çıxarır. Təşkilatın əsas vəzifəsi çoxtərəfli ticarət danışıqlarının Uruqvay Raundu (1986-1994) nəticəsində formalaşmış Sazişlər Paketi əsasında üzv ölkələr arasında ticarət-iqtisadi münasibətlərin tənzimlənməsidir.

Hazırda ÜTT-nin üzvü olan 164 ölkə dünya ticarətinin və qlobal ÜDM-in təxminən 98 faizini təşkil edir. Bu gün ÜTT-nin 5 əsas prinsipi var. Birinci prinsip bərabər hüquqlardır. Bütün ÜTT üzvlərindən tələb olunur ki, bütün digər üzvlər üçün ən əlverişli dövlət (MFN) ticarət rejimini təmin etsinlər. MFN prinsipi o deməkdir ki, ÜTT üzvlərindən birinə verilən üstünlüklər istənilən halda avtomatik olaraq təşkilatın bütün digər üzvlərinə şamil edilir.

İkinci prinsip qarşılıqlılıq. İkitərəfli ticarət məhdudiyyətlərinin yüngülləşdirilməsində bütün güzəştlər qarşılıqlı olmalıdır.

Üçüncü prinsip şəffaflıqdır. ÜTT üzvləri öz ticarət qaydalarını tam şəkildə dərc etməli və digər ÜTT üzvlərinə məlumat verməkz üçün məsul orqanlara malik olmalıdırlar.

Dördüncü prinsip mövcud öhdəliklərin yaradılması. Ölkələrin ticarət tarifi öhdəlikləri ölkələr arasında münasibətlərlə deyil, ilk növbədə ÜTT orqanları tərəfindən tənzimlənir. Və əgər hər hansı bir ölkədə müəyyən sektorda ticarət şərtləri pisləşərsə, imkansız tərəf digər sektorlarda təzminat tələb edə bilər.

Beşinci prinsip təhlükəsizlik klapanlarıdır. Bəzi hallarda hökumət ticarət məhdudiyyətləri tətbiq etmək hüququna malikdir. ÜTT Sazişi üzvlərə təkcə ətraf mühiti qorumaq üçün deyil, həm də ictimai sağlamlıq, heyvan və bitki sağlamlığını dəstəkləmək üçün tədbirlər görməyə imkan verir.

Keçmiş SSRİ məkanında ÜTT-yə üzvlüklə bağlı ən qısa danışıqlar Qırğızıstanla (2 il 10 ay), ən uzun danışıqlar isə Rusiya ilə (19 il 2 ay) olub.

Artıq 26 ildir ki, Azərbaycan ÜTT ilə müşahidəçi qismində əməkdaşlıq edir. Bur müddət aktiv danışıqlar, işçi qrup formatında müzakirələr aparılsa da, 2016-cı ildən bu proses tam dayandırılmışdı. Həmin dövrdə Azərbaycanda aqrar sektorun inkişafına dövlət dəstəyinin yeni mexanizmləri işə salınırdı və bunun ÜTT prinsipləri ilə uyğun olmadığı əsas gətirilirdi. 2023-cü ilin iyulunda 6 illik fasilədən sonra Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü məsələsi yenidən gündəmə gəldi. Belə ki, Cenevrədə Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyü ilə bağlı yaradılmış İşçi Qrupun 6 illik fasilədən sonra iclası keçirildi. İclasla bağlı rəsmi məlumatdan aydın olur ki, tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın dayanıqlı iqtisadi artımı, ölkəmizin sosial-iqtisadi prioritetləri, ticarət sahəsinin inkişafı, beynəlxalq ticarətə inteqrasiya və müvafiq qanunvericilik sahəsində aparılan islahatlar, biznes mühitinin təkmilləşdirilməsi məqsədilə həyata keçirilən tədbirlər, ÜTT-yə üzvlük məqsədilə görülən işlər barədə məlumat verib. Tədbirdə İşçi Qrupun hesabat layihəsinin müzakirəsi aparılıb. ÜTT üzvü olan ölkələrin nümayəndələri sənədin aidiyyəti bəndləri üzrə rəylərini bildiriblər, onların bu barədə sualları cavablandırılıb.

İndi prosesin daha da aktivləşməsi müşahidə olunur. ÜTT-nin timsalında Qərb Orta Dəhliz ölkələrinin vahid qaydalar üzrə fəaliyyətinə nail olmağa çalışır. Layihəyə milyardlarla yatırım qoymağa başlayan Avropa İttifaqı da dəhliz ölkələri ilə münasibətlərin ÜTT kimi sabit müstəvidə qurulmasında maraqlıdır.

Orta Dəhliz ölkələrini nəzarətə almaq istəyində olan Çin və Rusiya da boş dayanmır. Çin son iki ildə Mərkəzi Asiya ölkələrinə diqqəti dəfələrlə artırıb, çoxmilyardlıq layihələrə vəsait ayırır. Rusiya da bölgədə təsir imkanlarını genişləndirmək üçün Avrasiya İqtisadi İttifaqı mexanizmindən yararlanmağa çalışır.

Bu baxımdan, Azərbaycan üçün ÜTT ilə AİI arasında seçim perspektivinin formalaşması ehtimalı da artır. ÜTT-nin əsas prinsipi azad, açıq və şəffaf rəqabətdir. Azərbaycan təşkilata üzv olarsa, dünya ticarətinin "oyun qaydalarına" uyğun olaraq, tədricən proteksionizmdən əl çəkməli olacaq. Bu, ilk növbədə, gömrük tariflərini aşağı salmaqla istehlakçıların ucuz və keyfiyyətli mal və xidmətlərə çıxışını təmin edəcək. Xammalın qiymətinin aşağı düşməsi ilə əlaqədar yerli məhsulların da qiyməti aşağı düşəcək, beynəlxalq bazarda rəqabət qabiliyyəti yüksələcək. Logistika ilə bağlı xərclər əhəmiyyətli dərəcədə azalacaq.

Xaricdən gətirilən xammalın qiyməti nə qədər ucuz olarsa, yerli istehsalın hazır məhsulları da bir o qədər aşağı olur. Bu, rəqabət qabiliyyətini artırır. Bu, ilkin dövrdə milli istehsala mənfi təsir göstərsə də, uzunmüddətli perspektivdə rəqabət mühitinin yaradılmasında müsbət amildir.

ÜTT-yə üzvlüklə daxili bazarda daxili inhisarların hökmranlığına son qoyulacaq, azad rəqabət mühiti yaradılacaq. Eyni zamanda Azərbaycan bazarına investor axını da artacaq. Bu, yeni iş yerləri, yerli istehsalın artması deməkdir. Bundan əlavə, ortamüddətli perspektivdə təşkilata üzvlük inflyasiyanın əhəmiyyətli dərəcədə azalmasına zəmin yaradacaq: bazarda qiyməti inhisarçılar deyil, məhz bazar prinsipləri tənzimləyəcək.

AİI-yə üzvlük Azərbaycanın təşkilatın xarici ticarət qaydalarını qəbul etməsi deməkdir. Bu, ÜTT-yə daxil olmaq üzrə danışıqları məntiqsiz edər və xarici ticarət siyasətini müstəqil müəyyən etməkdən imtinaya gətirib çıxarar. Bundan əlavə, AİI-yə qoşulmaq Azərbaycanın üçüncü ölkələrlə azad ticarət zonaları yaratmaq imkanlarını məhdudlaşdıracaq. Bir qayda olaraq, əgər ölkə azad iqtisadi zona yaratmaq istəyirsə, vahid gömrük rüsumunun müəyyən edildiyi digər inteqrasiya təşkilatlarına qoşulmamalıdır.

ÜTT-yə üzvlük isə Azərbaycana digər iştirakçılarla razılaşaraq öz maraqlarına əsaslanaraq xarici ticarət tariflərini təyin etməyə imkan verəcək.

Qeyd edək ki, ÜTT-yə qəbul mürəkkəb prosedurdur. Bu proses üç ildən 15 ilədək çəkə bilər. Lakin Azərbaycanla bağlı prosesin çox uzanmasının başqa səbəbləri olduğu deyildir. Əsas səbəb ölkəmizin buna o qədər də maraq göstərməməsi hesab olunur. Azərbaycan hökuməti quruma üzvlüyün müsbət tərəflərinin olduğu kimi, mənfi tərəflərinin də olduğunu bildirir. Bu zaman əsas diqqət kənd təsərrüfatına dövlət dəstəyinə yönəldilir: rəsmilər bildirirlər ki, ÜTT qaydaları Azərbaycanda dövlətin aqrar sektora dəstəyini məhdudlaşdıracaq.

Ekspertlərə görə, ÜTT-yə üzvlük vacibdr. Çünki hazırda beynəlxalq ticarətin 95 faizə qədəri ÜTT-yə üzv ölkələrin payına düşür. İddialara görə, ÜTT-yə üzvlük şəraitində liberal iqtisadi siyasətin həyata keçirilməsi monopolistlər üçün sərfəli deyil. Çünki iri şirkətlərin çoxunun fəaliyyəti beynəlxalq, müasir standartlara uyğun deyil. Sadəcə, indiki şərtlərdə bazarda böyük paya sahib ola bilirlər. Rəqabətli mühit yarandıqda onların bir çoxu sıradan çıxacaq. Bu kimi məqamlar ÜTT-yə üzvlüyü yubadır. Bundan əlavə, gömrük sisteminin şəffaflaşdırılması əhəmiyyətli məsələdir.

Lakin yuxarıda da qeyd etdik ki, beynəlxalq səviyyədə proseslər çox sürətlə gedir, şərtlər dəyişir. Bu dəyişən şərtlər Azərbaycanın qısamüddətli deyil, uzunmüddətli perspektivi nəzərə alaraq addım atmasını zəruri edir.

**Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (8473) 8 iyun 2024

# “Qırmızı xətlər”in tapdandığı müharibə Rusiyaya keçir

## “Pirr qələbəsi” kimin olacaq?

**Rusiya-Ukrayna müharibəsi daha amansız fazaya daxil olub. Bu, o deməkdir ki, böyük sülh yaxında deyil. Bunun üçün hansısa minimum şərtlər belə gözə dəymir. Çünki tərəflərin yanaşmaları diametral zidd olaraq qalır. Çox şey isə əlbəttə ki, ABŞ-ın öncüllük etdiyi kollektiv Qərbin mövqeyindən asılı olacaq.**

“Düşünürəm ki, Rusiyanın Ukraynaya qarşı müharibəsini, hərbi və mülki obyektlərə hücumlarını dayandırmağın yeganə yolu Kiyevə yeni hərbi imkanlar verməkdən keçir. Rusiya ancaq üstün gücdən anlayır”.

“Yeni Müsavat”ın məlumatına görə, bunu Axar.az-a Ukraynaya Qərb silahlarından Rusiya ərazisində istifadəyə razılığın verilməsi haqqında danışan ABŞ-ın ölkəmizdəki keçmiş səfiri Metyu Brayza deyib.

O, Rusiyanın NATO ölkələrinə hücum etmək cəsarətində olmadığını bildirib: “Dünyanın bu cür aşkar təcavüzün qarşısını almaq üçün məsuliyyəti var. Rusiya Ukraynanın ərazisinə mümkün hücumlara cavab olaraq London kimi şəhərlərə nüvə zərbəsi endirməyə hazır olduğunu bildirib. Rəsmi Moskva başa düşməlidir ki, əgər nə vaxtsa NATO ölkələrinə hücum etməklə dəhşətli səhvə yol verərsə, ABŞ və onun NATO müttəfiqləri cavab zərbəsi endirəcək. Lakin Rusiya bu səhvi etməyəcək. Rusiya liderləri dəli deyillər. Onlar Ukraynaya qarşı təcavüzkar olduqlarını, səhv etdiklərini başa düşürlər, Avropa və ABŞ hədəflərinə ilk nüvə zərbəsinə cavab olaraq daha güclü Qərb dövlətlərinin Rusiyanı viran qoymasını istəmirlər”.

Diplomat Ukraynanın Rusiya ərazisindəki hədəfləri vurmaq hüququna sahib olduğunu vurğulayıb: “Qərb ölkələrinin Ukraynaya Rusiya ərazisini vurmaq üçün ”yaşıl işıq” yandırması Moskvanın cavab zərbəsi endirməsinə səbəb olmayacaq. Rusiya Ukraynanı bir ölkə kimi sıradan çıxarmaq üçün bu müharibəni seçib və istənilən vaxt gərginliyi azaltmaq qərarına gələ bilər. Ukraynanın özünümüdafiə məqsədilə istənilən qeyri-nüvə silahından istifadə etməsi beynəlxalq hüquqa tam uyğundur və əslində öz vətəndaşlarını və ölkənin suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü qorumaq üçün ölkə rəhbərliyinin məsuliyyətidir. Rusiya heç vaxt ona təhlükə yaratmayacaq dinc qonşusunu işğal edərək çox dəhşətli qərar verdi. Üstəlik, Rusiya Ukraynanın nüvə silahından imtinası müqabilində Budapeşt Memorandumuna uyğun olaraq bu ölkənin suverenliyini, müstəqilliyini və ərazi



bütövlüyünü qoruyacağına söz vermişdi".

Sonrası məlumdur...

Bu arada Ukrayna Prezidenti Aparatının rəhbərinin müşaviri Mixail Podolyak deyib ki, müharibənin bütün “qırmızı xətləri” artıq keçilib və yeni eskalasiyası başlayıb. “Dünənki bütün qırmızı xətlər yoxa çıxdı. Dünənədək ağlasığmaz görünən hər şey artıq reallıqdır. Eskalasiya? Bəli”, - deyə o əlavə edib.

ABŞ prezidenti Co Bayden isə hesab edir ki, Ukrayna ordusu müharibə zamanı rus qoşunlarını faktiki məhv etməkdədir. “Qəribədir, heç kim bu barədə, [Ukraynadakı müharibə zamanı] baş verənlər haqqında yazmır. Rus ordusu məhv edilir”, - dövlət başçısı “Time” jurnalına müsahibəsində bildirib.

Həqiqətən də belədirmi? Təhlillər nə deyir, Rusiya ordusu müharibə gedişatında zəifləyir, yoxsa? Bu minvalla “Pirr qələbəsi” kimin olacaq?

Siyasi şərhçi Heydər Oğuz Musavat.com-a açıqlamasında Rusiyanın nüvə silahları ilə NATO ölkələrinə hücum edəcəyinə inanmır: “Bu ilk növbədə Rusiyanın özü üçün ölümcül olar. Bilirsiniz ki, ABŞ-ın hava hücumundan çoxqatlı müdafiə sistemləri var. Bu sistemlərin təyinatı ABŞ-a və ya müttəfiqinə atılmış ballistik raketləri göydə zərərsizləşdirməkdir. ABŞ-ın HHM sistemlərini əsasən bu cür təsnif etmək olar:

**1)** Uzaqmənzilli HHM sistemləri (məsələn, THAAD);

**2)** Ortamənzilli HHM sistemləri (məsələn, AEGIS);

**3)** Qısamənzilli HHM sistemləri (məsələn, Patriot);

**4)** Yaxın məsafədən müdafiə (digər çoxlüləli silahlar).

Çoxqatlı hava hücumundan müdafiə sistemlərinin məqsədi hədəfi ən yüksək hündürlükdə sıradan çıxarmaqdır. Səhv etmirəmsə THAAD məhz bu səbəbdən 3000 km-ə qədər mənzilə sahibdir. Mütəxəssislərin fikrincə, bu müdafiə sistemi atılan raketlərin hardasa 90%-i zərərsizləşdirmək imkanına malikdir. Onun gözündən yayınanları isə digər qata hesablanmış AEGIS sistemləri zərərsizləşdirir. Əgər atılan raket ondan da yayınmağı bacarsa, o zaman Patriorlar dövriyyə girir və 300 km məsafədə hədəfi sıradan çıxarır".

Heydər Oğuzun fikrincə, ABŞ bu HHM dünyanın müxtəlif coğrafiyalarında qurub və onları öz hava məkanına girmədən başqa dövlətlərin səmasında vurmağı planlaşdırır: “Bu səbəbdən də Rusiyanın nüvə hücumundan çəkinmir. Çünki arxayındır ki, onun zərərləri ABŞ-a çox toxunmayacaq. Görünür, buna görə də Rusiya liderlərinin nüvə təhdidlərinə əhəmiyyət vermir”.

Xüsusilə İranın İsrailə 300-dən çox ballistik və seyr raketləri, həmçinin dron həmlələrindən sonra ABŞ-ın Rusiya əleyhinə tövrünü daha da kəskinləşdirdiyini diqqətə çatdıran siyasi şərhçi bunun təsadüf olmadığına inanır: “Mənim fikrimcə, İranın İsrailə hücumu həm ABŞ, həm də Rusiya üçün bir test yoxlaması idi. Zira Rusiya üzərində nüvə başlığı daşıyan eyni və ya bənzər raketlərlə Qərb dünyasını təhdid edirdi. İsrail isə o raketlərin 90%-ni göydə zərərsizləşdirərək əslində həm də Rusiyaya bir göz dağı verdi. Aydın oldu ki, Rusiyanın Qərb ölkələrinə qarşı tətbiq edəcəyi raket zərbələri də eyni qaydada zərərləşdirilə bilər. Məhz bundan sonra ABŞ-ın Ukraynaya daha güclü silahlar verməsinin önü açıldı. NATO ölkələri bununla da kifayətlənmədilər və Ukraynaya Rusiyanın daxilinə zərbələr endirməyə izn verdilər.

Fikir vermisinizsə, İsrail-İran gərginliyindən sonra Rusiya da nüvə təhdidlərini xeyli yığışdırıb. Sonuncu dəfə Putin Sankt-Peterburq açıqlamasında belə nüvə təhdidini xeyli ehtiyatlı şəkildə dilə gətirdi. Üstəlik, açıq şəkildə dedi ki, Qərb bizim nüvə hücumu edəcəyimizi ciddiyə alırıq, buna inanmır. Putin həmin çıxışında daha çox rus silahlarını Qərbə düşmən qüvvələrə verə biləcəklərindən və assimetrik savaşdan danışdı. Açığı, bu da ciddi təhdid deyildi. Çünki Qərbə düşmən olan həmin qüvvələrin kim olduğu bəlli deyil. Əgər söhbət Afrikadakı və Asiyadakı ölkələrdən gedirsə, onlara veriləcək rus silahları atılacağı təqdirdə Avropaya, yaxud ABŞ-a çata bilməz. Yox əgər Avropanın içindəki hansısa terror təşkilatını silahlandırmaqdan söhbət gedirsə, bu da Qərb üçün həyati təhdid ehtiva etmir”.

Heydər Oğuzun fikrincə, Rusiya liderinin bu mövqeyi əslində öz təhdidkar mövqeyindən bir addım geri çəkilməsi demək idi: “Eyni zamanda biz ABŞ prezidenti Co Baydenin ”Time” nəşrinə verdiyi müsahibəsində təhdidkar ritorikasını qismən azaltdığının şahidi oluruq. Baxmayaraq ki, o, Rusiyanın “əsla, əsla və əsla” Ukraynanı işğal edə bilməyəcəyini desə də, həm də Ukraynanın NATO-ya üzv olmayacağını da vurğuladı. Nəzərə alsaq ki, Rusiyanın Ukraynaya hücumunda əsas bəhanəsi bu ölkənin NATO-ya üzvlük perspektivi idi, o zaman Baydenin sözügedən açıqlamasının gərginliyi azaltmağa hesablandığını anlaya bilərik. Açığı, mənə gəlir ki, ABŞ bu sözlərlə Rusiyaya Ukraynadan üzüsulu çıxması üçün bir fürsət verir. Putinin bu addımı atarkən söykənəcəyi qələbə istinadgahı isə “Ukraynanın NATO-ya üzvlüyünün qarşısını aldım” arqumenti olacaq. Amma bu Rusiyanın işinə nə qədər yaradı, bu da mübahisəlidir. Çünki Ukrayna NATO-ya girməsə belə, Finlandiya kimi daha strateji əhəmiyyətli ölkə bu ittifaqa üzv oldu. Bununla belə, hesab edirəm ki, Putin Ukraynada qazandığı bu təsəlli qələbəsini üzünə tutub rus xalqının qarşısına çıxa və öz yenilməzliyi ilə öyünə bilər. Buna görə də şəxsən mən Ukrayna cəbhəsində eskalasiya şiddətinin daha da artacağına inanmıram".

❑ **Elşən MƏMMƏDƏLİYEV,
“Yeni Müsavat”**

# Bayden Ukraynaya 225 milyon dollarlıq hərbi yardım ayırıb



**ABŞ Prezidenti Co Bayden Ukrayna lideri Vladimir Zelenski ilə görüşdə həmin ölkəyə 225 milyon dollarlıq növbəti hərbi yardım paketini elan edib.**

APA-nın CNN-ə istinadən xəbərinə görə, o bildirib ki, yeni paket ordunun silah-sursat, eləcə də hərbi texnika ilə təchizatına sərf olunacaq.

Ağ Evə yaxın mənbələrdən bildirilib ki, bu məbləğə Ukrayna Silahlı Qüvvələrinin HIMARS, artilleriya sistemləri və minaatanlar, eləcə də hava hücumundan müdafiə sistemlərinin alınması da nəzərdə tutulur.

O da bildirilib ki, görüş zamanı Vladimir Zelenski ordunun zirehli nəqliyyat vasitələrinə ehtiyacı ilə bağlı məsələni Baydenin diqqətinə çatdırıb. Öz növbəsində Ağ ev rəhbəri Ukraynanın Hərbi Dəniz Qüvvələrinin patrul gəmiləri ilə də təmin olunacağını söyləyib.

Ukrayna liderinin Baydendən Rusiya ərazisinə zərbələrin endirilməsi ilə bağlı icazə istəyəcəyi də bildirilir.

Müşahidəçilərin fikrincə, V. Zelenskinin qaldıracağı daha bir məsələ isə Xarkovun Rusiya ordusunun hücumlarından etibarlı müdafiəsinin təşkilində dəstəklə bağlı olacaq.

YENİ MÜSAVAT
N 100 (8473) 8 iyun 2024

# Tiflisdən Qərbi qəzəbləndirəcək daha bir addım - doğru, amma...

## Rəşad Bayramov: “Belə bir qanunun müzakirəyə çıxarılması kifayət qədər düşünülmüş məsələdir və...” Niyaməddin Orduxanlı: “Qərb Gürcüstanda etdiklərini bu gün Azərbaycanda edə bilməz”

**Gürcüstan hakimiyyəti parlamentə LGBT təbliğatını qadağan edən qanun layihələri paketini təqdim edib. Bu barədə hakim “Gürcü Arzusu” Partiyasının baş katibi Kaxa Kaladze bildirib.**

Paket “Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında” əsas qanun layihəsindən və Mülki və Əmək məcəllələri də daxil olmaqla, mövcud qanunvericiliyə dəyişiklik edən 18 qanun layihəsindən ibarətdir. Parlamentin spikeri Şalva Papuaşvilinin sözlərinə görə, paket səkkiz əsas məsələni tənzimləyir:

konstitusiyaya görə, Gürcüstanda nikah kişi və qadının birliyidir, bu məqam daha da möhkəmlənəcək;

LGBT təmsilçiləri üçün uşaqların övladlığa götürülməsinə qadağa;

cinsiyyətin dəyişdirilməsi üçün əməliyyatların və hər hansı tibbi prosedurların qadağan edilməsi;

sənədlərdə cinsin göstərilməsi - qeyri-bioloji cinsin göstərilməsi qadağandır;

eynicinsli münasibətləri və ya insestləri təbliğ edən kontentlərin yayımına qadağa;

eynicinsli münasibətləri təşviq etmək məqsədi daşıyan ictimai toplantıların və nümayişlərin qadağan edilməsi;

17 may - Ailə müqəddəsliyi günü olaraq istirahət günü kimi müəyyən edilir.

“Gürcü Arzusu” paketi yaz sessiyasında birinci oxunuşda qəbul etməyi, sonra isə payızda baxılmağa davam etməyi planlaşdırır.

Bəllidir ki, LGBT aparıcı Qərb dövlətlərinin insan haqları kimi dəyər verdiyi bir mövzudur. Belə olan halda “Xarici agentlər haqda” qanundan sonra növbəti “anti-Qərb” sənədinin qəbulunun Tiflis üçün bədəli nə ola bilər? Azərbaycandan ötrü mümkün və uzaq təsirlər?

AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov Qərbin oyunlarının nəticəsiz qalacağını düşünür: “Əslinə baxanda Gürcüstan hakimiyyətinin LGBT təbliğatını qadağan edən qanun layihəsini parlamentin müzakirəsinə təqdim etməsi Qərb dövlətlərinin rəsmi Tiflis üzərinə hücum etməsinə hesablanıb. Gürcüstanda hakim ”Gürcü Arzusu” Partiyası belə bir qanunun nəinki qəbulub hətta müzakirəyə çıxarılması Qərbin səssiz qalmayacağını bilir və belə bir təşəbbüs göstərməklə Qərbi oyuna çəkir. Belə ki, Gürcüstanda əhali böyük çoxluqla mühafizəkar baxışlara malikdir və xüsusilə də ailə dəyərləri baxımından gürcülər olduqca həssas topluluqdur. Eyni şəkildə Gürcüstanda yaşayan və saylarına görə gürcülərdən sonra ikinci yerdə olan azərbaycanlıların da Qərbin təbliğ etdiyi qeyri-ənənəvi nikahları və ümumiyyətlə LGBT təbliğatını qəbul etmədiyi məlumdur. Məhz bu səbəbdən də LGBT təbliğatını qadağan edən qanunun parlamentin müzakirəsinə çıxarılmasına Qərb tərəfdən ediləcək təzyiqlər əslində əks effekt verəcək və Gürcüstan hakimiyyətinə anti-Qərb təbliğatını qurmaq üçün yeni imkanlar yaradacaq. Qərbin diqtəsi ilə hərəkət edən QHT-lər və müxalifət isə ictimai rəyi nəzərə alaraq ya susmaq məcburiyyətində qalacaq, ya da bu məsələdə də hakimiyyətin üzərinə gedib nüfuzlarını itirəcəklər. Gürcüstan hakimiyyəti üçün, xüsusilə indiki dönəmdə, yəni oktyabrda keçiriləcək Parlament seçkiləri ərəfəsində Qərb təsiri ilə hərəkət edən qüvvələrin zəiflə məsi olduqca vacibdir.

Qanun layihəsinin özünə gəldikdə isə göründüyü kimi kifayət qədər əhatəli və ailə dəyərlərinin müdafiəsinə yönəlik bir layihədir. Həqiqətən də LGBT təmsilçiləri üçün uşaqların övladlığa götürülməsi, eynicinsli münasibətlərin təşviqi gələcəkdə bu baxışlarla yeni nəslin formalaşmasına imkan açar ki, bu da yolverilməzdir.

Qərbin insan hüquqları adı altında belə bir qanun layihəsinin əleyhinə çıxması isə, əksinə bu baxışları normal hesab etməyən və qəbul etməyən çoxluğun hüquqlarını tapdalamaq deməkdir. Bütün bunları nəzərə alaraq deyə bilərəm ki, Gürcüstan hakimiyyəti tərəfindən belə bir qanunun müzakirəyə çıxarılması kifayət qədər düşünülmüş addımdır və Qərbdən gələcək hücumlardan istifadə edərək anti-Qərb kampaniyasının aparılmasına hesablanıb”.

Ədalət, Hüquq, Demokratiya Partiyası sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı Qərb dairələrinin Gürcüstanda etmək istədiklərini Azərbaycanda heç bir zaman edə bilməyəcəklərini qeyd etdi: “Son zamanlar qonşu Gürcüstanda baş vermiş hadisələri Qərblə Rusiya arasında açıq müstəvidə mübarizənin təzahürü kimi xarakterizə edərdim. Yerli hakimiyyətə qarşı geniş etiraz aksiyalarının keçirilməsini Qərb təşkil edir. Yəni Rusiya meyilli qüvvələrə əzələ nümayişi. Qərb Gürcüstanda özünün yaratdığı 5-ci kolon vasitəsindən çox məharətlə yararlanır. Təsəvvür edirsiniz, bir neçə milyonluq Gürcüstanda 30000-ə yaxın QHT var və bu vətəndaş cəmiyyəti institutlarının 90% qrantını Qərb verir. 30 000 QHT-nin elə ancaq öz ailə üzvləri çıxsa, ən azı 50-70 min adam deməkdir. Həmin mitinqlərdə də bu kontingent iştirak edir. Necə deyirlər, pul kim veribsə, sifarişi də o verir. Ötən illərdə Qərb bu QHT-lərə boş-boşuna pul verərdi? Bugünkü situasiya üçün hazırlayırdı. Qərbdə uzun müddətdir ki, liberallaşma geniş vüsət alıb. Məqsədli şəkildə bir sıra ölkələrdə LGBT təbliğatından istifadə edirlər. Gürcüstan hökumətinin təqdim etdiyi qanun layihəsi başa düşüləndir. Qərb uzun illərdi ki, LGBT-nin təbliğatını külli miqdarda maliyyə qarşılığında yerli TV-lər vasitəsi ilə həmin ölkələrdə davam etdirir. Öz siyasətlərini həyata keçirmək, ailə dəyərlərini sıradan çıxartmaq üçün. Gürcüstan konstitusiyasına görə, nigah kişi və qadın birliyidir! Başqa cür də ola bilməz! Din də buna yol vermir ki, eynicinsli münasibətlər baş versin. Bu, birbaşa mənəvi deqradasiyadır. Ancaq Qərb bunu Gürcüstanda insan hüquqlarının və azadlıqlarının pozulması kimi qiymətləndirir. Gürcüstan hökumətini açıq şəkildə hədəfə almaq üçün bu cür bəhanələr tapır. Hökumət həm də ” Xarici agentlər haqda" qanun qəbul olunmasını da 5-ci kolonun fəaliyyəti ilə bağlı olduğunu gizlətmir. Tiflisə Qərb bütün imkanları ilə təzyiqini davam etdirəcək. Birazdan açıq şəkildə sanksiya hədəsi gələcək. Ancaq Qərb unutmamalıdır ki, gürcü xalqı Saakaşviliyə ona görə səs vermədi ki, onun qonşu Rusiya ilə münasibətləri çox pis idi, İvanaşviliyə ona görə səs verdi ki, Gürcüstanla Rusiyanın münasibətlərini daha da yaxşılaşdırsın. Rusiya ilə münasibətlərinə görə İvanaşvili Saakaşviliyə qalib gəldi. Gürcüstanda baş verənlərin Azərbaycana təsirinə gəldikdə isə Gürcüstanda fərqli olaraq Azərbaycanda Qərb çox güclü şəkildə “qhtşniklər” vasitəsilə 5-ci kolonunu qura bilməyib. Bəzi azsaylı istisnalar var. Qərb barmaqla sayılacaq bir neçə QHT və media orqanlarına gizli yollarla pul göndərə bilir. O cümlədən də, pul qarşılığında Əli Kərimlini Azərbaycan hakimiyyətinə qarşı danışdıra bilir. Ancaq xalqımız Əli Kərimlinin pula görə Qərbin tapşırıqlarını yerinə yetirdiyini çox yaxşı anlayır. Belə bir adama xalq heç zaman dəstək verməz. Qərb Gürcüstanda etdiklərini bu gün Azərbaycanda edə bilməz”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**






## Kreml: “Makronun Ukrayna ilə bağlı bəyanatı təxribatdır”

**Fransa lideri Emmanuel Makronun Ukraynadakı münaqişədə birbaşa iştirak etməyə hazır olması ilə bağlı bəyanatları təxribat xarakterlidir. APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. Onun sözlərinə görə, bu cür bəyanatlar gərginliyi artırır.**

“Makron Kiyev rejiminə tam dəstək nümayiş etdirir və Fransa Respublikasının hərbi münaqişədə birbaşa iştirakına hazır olduğunu bəyan edir.

Fransanın NATO üzvü, Avropa İttifaqınının üzvü, böyük bir Avropa dövləti olduğunu nəzərə alaraq, biz bu bəyanatları olduqca təxribatçı, qitədə gərginliyi artıran və heç nəyə müsbət yardımı olmayan hesab edirik", - deyə Kremlin sözçüsü vurğulayıb.




## Almaniya sərhəddə təhlükəsizlik tədbirlərini gücləndirir

**Almaniya futbol üzrə Avropa Çempionatı ərəfəsində sərhəd boyunca təhlükəsizlik tədbirlərini gücləndirir. APA-nın “Deutsche Welle”yə istinadən xəbərinə görə, bunu ölkənin daxili işlər naziri Nensi Fezer bildirib.**

O deyib ki, bunda əsas məqsəd radikal islamçı qruplaşmaların çempionatın gedişində törədə biləcəyi terror-təxribat əməllərinin qarşısını almaqdan ibarətdir.

Nazirin sözlərinə görə, ölkəsinin müraciəti əsasında qonşu dövlətlərdən 580 polis əməkdaşı da təhlükəsizlik tədbirlərinə cəlb olunacaq.

Qeyd edək ki, 14 iyun -14 iyul tarixlərində Almaniyada futbol üzrə Avropa Çempionatı keçiriləcək.

Yeni MÜSAVAT
N 100 (8473) 8 iyun 2024

# Arıqlamağın ən təhlükəsiz üsulu - ölümcül səhvlər, ən əlverişli mövsüm

**Həkim:** "İnsanlar fərqinə varmır ki, içdikləri həmin zəhərli maddələr bütün orqanlara dağıdıcı zərbə vurur, xanımlarda çox ciddi ginekoloji problemlər yaradır"

**Köklükdən nəzarətsiz qurtulmağın fəsadları haqda zaman-zaman deyilib, yazılıb. Əfsus ki, insanlar yenə möcüzə dalınca qaçır, hansısa "qeyri-adi" dərmanların istifadəsinə can atırlar. Bununla da öz həyatlarını ciddi risk altında qoyurlar.**



Bu arada sosial mediada sürətlə yayılan yeni trend əsl təhlükə saçır. "Yeni Musavat" Medicina.az-a istinadən xəbər verir ki, izləyici sayı çox olan bəzi sağlamlıq səhifələri gənəgərçək yağı içərək arıqlamağın mümkün olduğu, hətta bu yağın xərçəngi müalicə etdiyi ilə bağlı məlumatlar yayıblar.

Mütəxəssislər isə bunun çox təhlükəli üsul olduğunu, gənəgərçək yağı içənlərin müxtəlif sağlamlıq problemləri yaşayacaqları ilə bağlı xəbərdarlıq edirlər. Onlar qeyd edirlər ki, saç qulluğunda uzun müddətdir istifadə edilən gənəgərçək yağının daxilə qəbulu yolverilməzdir.

Belə ki, bu yağı içənlərin üzləşdiyi ən yüngül simptomlar şiddətli qarın ağrısı və ishaldır. Qəbul edildikdən sonra gənəgərçək yağı prostaglandin reseptorlarını aktivləşdirir, məzmunu tam həzm etməyə və bərk nəcis əmələ gətirməyə vaxt vermədən nazik bağırsaqda daralmalara səbəb olur. Mütəxəssislərə görə, gənəgərçək yağı bağırsaqda mayenin udulmasına mane olur və bağırsaq hərəkətlərini sürətləndirir. Belə vəziyyət orqanizmin qidalanmasına mane olaraq bədəndə susuzluğa və elektrolit balansının pozulmasına gətirib çıxarır.

Bu yağı içməyin uzunmüddətli istifadəsi zamanı əks təsirlər daha dəhşətli ola bilər. Ona görə də onu içməkdən çəkinmək lazımdır. Həkimlər həmçinin vurğulayır ki, gənəgərçək yağının arıqlatdığı və ya xərçəng kimi ciddi xəstəliklərə təsir etdiyinə dair heç bir elmi sübut yoxdur.

Bəs təhlükəsiz arıqlamağın ən yaxşı, ən optimal üsulu, yolu varmı? Bu zaman buraxılan əsas səhvlər hansılardır? Dərmansız arıqlamaq mümkünmü? Nəhayət, atıq çəkidən xilas olmaq üçün ilin hansı mövsümü daha əlverişli və ya münasib sayılır - yay, yoxsa?

Mövzu ilə bağlı həkim-diyetoloq Ləman Süleymanova "Yeni Müsavat"a danışıb:

"Piylənmə müasir dövrümüzün ən qlobal problemlərindən biridir. 15-20 il öncə çəki problemi o qədər də qlobal deyildi. Lakin son illərdə dünyada çəki artımından əziyyət çəkən insanların sayı artıb. Çünki 20-25 il əvvəl insanlar daha orqanik qidalanırdı, qidaların tərkibində kimyəvi maddələr daha az idi. Hətta artıq çəki problemi olan insanlar belə bunun o qədər də fərqinə varmır, stress yaşamırdılar. Lakin illər ötdükcə, dünya müasirləşdikdə insanlar artıq öz vücud gözəlliyinin fərqinə varmağa, artıq çəkidən xilas olmağa çalışmağa başladı".

Ləman Süleymanova qeyd edib ki, tərkibində kimyəvi maddələrin çoxluq təşkil etdiyi qidalar, iqlim, təbiət, digər nüanslar insanın metabolizmini zəiflədir:

"İlk olaraq insanın özü öz metabolizmini zəiflədir. Belə ki, düzgün qidalanmır, sağlam həyat tərzi sürmür, oturaq işlə məşğul olmaqla yanaşı, gec saatlarına qədər oyaq qalır, sonra yatır və yalnız günorta saatlarında ayılır. Bu cür insanlar daha passiv, metobolizmi çox zəif olur, daha qısa ömür sürür. Həmçinin həzm prosesi çalışmır, nə yeyirlər hamısı piy deposuna ötürülür, nəticədə qanda xolesterin artır, qaraciyərdə piylənmə, mədədə problemlər yaranır və sairə.

Çox təəssüf ki, müasir dövrümüzdə bu kateqoriya insanlar çoxluq təşkil edir.

Əlbəttə ki, piylənmənin səbəbləri müxtəlifdir. Məsələn, bir qisim insanlar düzgün qidalanmır, səhər yemir, amma axşam davamlı olaraq yeyir.

Çox maraqlıdır, çəki alarkən bunun fərqinə varmırlar, yalnız son məqamda güzgüyə baxırlar ki, xeyli çəki alıblar. Onları qəflət yuxusundan oyanmağa məcbur edən də ətrafdakı insanların replikalarıdır. Beləliklə, depressiyaya qapılır və tez bir zamanda artıq çəkidən xilas olmağa çalışırlar. Amma təbii ki, bu, mümkünsüzdür.

Buna görə də sosial şəbəkələrdə heç bir diplomu olmayan insanlar, sosial şəbəkə fenomenləri və sairə biznes məqsədi ilə yalan profillər açaraq dələduzluq edir, adlarının qarşısına dieotoloq, həkim yazırlar və tez bir zamanda arıqlama vədi ilə təhlükəli kokteyllər, çaylar satırlar.

İnsanlar da düşünür ki, klinikaya getməkdənsə bu çaylardan, kokteyllərdən istifadə edərək, tez bir şəkildə arıqlaya bilərlər. Amma fərqinə varmırlar ki, içdikləri həmin zəhərli maddələr bütün orqanlara dağıdıcı zərbə vurur, xanımlarda çox ciddi ginekoloji problemlər yaradır. Bəzən qız uşaqları həmin çayları, kokteylləri çox qəbul etdikdə sonsuzluq təhlükəsi ilə üzləşirlər.

Bəzən görürük ki, xüsusən də 30-35 yaşında gənc kişilər ürəyinə stend qoydururlar, çünki düzgün qidalanmayıb, yediyi qidaların tərkibindəki zəhərlər depolaşıb və problem yaradır.

Gənəgərçək yağının özü doymamış yağ turşularına aiddir, yəni bitki yağıdır. Əlbəttə ki, hər bir yağın öz faydası və zərəri var. Lakin hansısa yağ, həb insanı arıqlatmır, bu, mümkün deyil. Gənəgərçək yağı kosmetoloji proseduralarda dərinin elastikləşməsi ilə bağlı istifadə olunur. Bəzi hallarda bağırsaqda problem, babasil olanda düyünlər çəkilir. Hətta qəbzi olan insanlara müraciət edirəm ki, belə üsullardan istifadə etmək məsləhət deyil, çünki müvəqqəti olaraq müsbət təsir edir, amma sonra bağırsaq daha da passivləşir. Ona görə də heç bir qida, çay insanı arıqlatmır. Bunun üçün peşəkar həkimə müraciət etmək lazımdır. Peşəkar həkim əvvəlcə pasiyenti müayinələrdən keçirir, kökəlmənin səbəblərinin araşdırır, bundan sonra xüsusi fərdi müalicə proqramı təyin olunur.

Hər bir insanın özünə xas fizioloji xüsusiyyətləri, genetik xəstəlikləri və yaxud xəstəlikdən sonra müalicə prosesləri var. Biz həkim olaraq pasiyenti qəbul edəndə hərtərəfli müayinə edir, testdən, analizdən keçirir, daha sonra müalicəyə başlayırıq. Amma sosial şəbəkələrdə hamıya eyni pəhrizi verirlər. Ola bilər ki, həmin pəhriz sayəsində insan əvvəldə 5 kq çəki atsın, amma müəyyən vaxtdan sonra çəki ikiqat artmağa başlayır və başqa problemlərə gətirib çıxarır".

Ləman Süleymanova görə, uzun müddət ac qalmaqla arıqlamaq çox təhlükəlidir:

"Müəyyən bir müddət lazımdır ki, sağlam şəkildə bu çəkini atasan. Uzun illər yığılan çəkini bir anda atmaq sağlamlığa ciddi ziyan vura bilər. Ac qalmaqla pəhriz olmaz. İnsan orqanizminin tələb etdiyi mikroelementlər var ki, gün ərzində qəbul etdiyimiz qidaların tərkibində bunlar orqanizmə daxil olur. Kərə yağı, duz, ət, çörək və s. bütün bunlar hamısı yeyilməlidir. Biz, sadəcə, bu proqramı balanslaşdırırıq".

Həkimin fikrincə, dərman preparatlarından qəti şəkildə istifadə etmək olmaz: "İstənilən arıqlama dərmanlarının tərkibində asılılıq yaradan xüsusi narkotik maddələr var. Kokteyllərdən tutmuş digər preparatlara qədər hər birinin tərkibində bu maddə var və zamanla insan orqanizmini zəhərləyir. Nəticədə, xərçəng xəstəliyi və ağlınıza gələcək ən qorxunc xəstəliklər, hətta ölümlə sonlana bilər. Heç yerdə qeyd edilməsə də, həmin maddə "maxuan ephedra" adlanır. İnsan orqanizmində müxtəlif problemlər yaradır, xüsusilə də qadınlarda rast gəlinən bir çox xəstəliklərin yaranmasına səbəb olur. Bu məsələ araşdırılsa, görərsiniz ki, həmin qadınların 90 faizi bu arıqlama preparatlarından istifadə edib".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**




## Qazax Uşaq-Gənclər İnkişaf Mərkəzində mənimsəmə ilə bağlı cinayət işi başlandı

**Qazaxda təhsil müəssisəsinin vəzifəli şəxslərinin qanunsuz əməlləri ilə bağlı cinayət işi başlanıb.**

Qazax rayon prokurorluğundan APA-ya verilən məlumata görə, rayon Uşaq-Gənclər İnkişaf Mərkəzində baş verən qanunsuzluqlarla bağlı daxil olmuş məlumat əsasında rayon prokurorluğunda araşdırma aparılıb.

Araşdırmalarla Mərkəzin vəzifəli şəxsləri tərəfindən faktiki olaraq əmək fəaliyyətini icra etməyən şəxslərə əsassız olaraq əməkhaqqı ödənilməsi və digər yollarla xeyli miqdarda büdcə vəsaitinin mənimsənilməsi və israf edilməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Qazax rayon prokurorluğunda Cinayət Məcəlləsinin 179.2.4-cü (xeyli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə) maddəsilə cinayət işi başlanaraq istintaq aparılır.

YENİ MÜSAVAT
N 100 (8473) 8 iyun 2024

# Zəlzələ olmadan çökən binalar - mütəxəssislər deyir ki...

## Tikililərin davamlılığının müntəzəm monitorinqi aparılacaq; standartlara cavab verməyən binalar söküləcək

**Bir neçə gün öncə Türkiyənin meqapolisi sayılan İstanbul şəhərində günün günorta çağı üçmərtəbəli bina çökdü. İstanbulun Küçükçekmece rayonunda yaşayış binasının uçması nəticəsində 1 nəfər öldü, 8 nəfər yaralandı. Zəlzələ-zad olmadan binanın uçmasının səbəbləri müvafiq komissiya tərəfindən araşdırılır.**

Bu arada İstanbul Böyükşəhər Bələdiyyəsinin apardığı yoxlamalarda şəhərdə dağılma riski daşıyan 1556 bina müəyyən edilib. Yoxlama tələbi ilə bağlı quruma 160 min müraciət daxil olub və fasiləsiz çalışan mütəxəssislər 35 min tikilidə araşdırma aparıb.

Araşdırma aparılan binalar dayanıqlığına görə A və B (aşağı risk həddi), C (orta risk həddi), D (yüksək risk həddi) və E (Olduqca yüksək risk həddi) kateqoriyalarına bölünüb. Belə ki, binaların təxminən 50 faizi D və E kateqoriyasının payına düşüb. Nəticələrə görə, 1556 bina hətta sözügedən kateqoriyalarda belə yer almayıb.

Bəllidir ki, Türkiyə kimi Azərbaycan da yüksək seysmik zonada yerləşir. Bəs bizdə, Bakıda da analoji araşdırmalar aparılırmı?

Xatırladaq ki, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Zəlzələ mühəndisliyi elmi-tədqiqat Mərkəzinin direktoru Azər Qasımzadə ötən ay Bakıda keçirilən Katastrofik Risklərə Qarşı Dayanıqlı Maliyyə Sistemi Konfransında bildirib ki, Bakıda yüksək mərtəbəli binaların zəlzələyə davamlılığının müntəzəm monitorinqi ilə bağlı layihə hazırlanıb. Onun sözlərinə görə, sığorta şirkətləri həmin binalardakı mənzilləri sığorta edərkən monitorinqin nəticələrini nəzərə alacaqlar.

A. Qasımzadə onu da əlavə edib ki, dünya təcrübəsində mövcud olan bu layihələrdə risk qrupundakı binalar xüsusi olaraq nəzarətə götürülür. Bina sahibləri kritik mərhələdə bu barədə məlumatlandırılacaq.

Son zəlzələ zamanı bəzi binaların zədə aldığını xatırladan Azər Qasımzadə deyib ki, həmin binaların 25 %-i dəmir-beton panelli, 70 %-i daş, 5 %-i isə yığma daş konstruksiyalı olub.

Layihəyə əsasən yeni və köhnə binalara xüsusi cihazların qoyulması nəzərdə tutulur. Bu cihazlar zəlzələlərdən sonra binalarda yaranan zədələri qeydə alacaq. Beləliklə, vahid mərkəzdən neçə binaya zərər dəydiyini asanlıqla müəyyənləşdirmək mümkün olacaq.

Bununla bağlı təkliflər müvafiq qurumlara təqdim edilib.

Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Yeni Müsavat"a şərhində qeyd etdi ki, sözügedən məsələ ilə bağlı layihə hazırlanır: "Binaların zəlzələyə davamlılığının monitorinqi ilə bağlı işlər görülür. Çoxmənzilli binaların hər hansı təbii fəlakətə davamlılığı ilə əlaqədar yoxlamalar aparılacaq. Bu həm daş panel, həm beton panel, həm də digər konstruksiyalı binalara, eyni zamanda istismar müddətini başa vurmuş binalara da aiddir. Monitorinqin aparılması çox önəmlidir. Çünki Bakıda minlərlə istismar müddətini başa vurmuş bina var. Bu binalar təbii fəlakət, hətta təbiət hadisələri zamanı kifayət qədər risk daşıyır, dağılma, uçma və s. ehtimalı yaranır. Bu baxımdan genişmiqyaslı yoxlamanın aparılması müsbət haldır. Azərbaycanın seysmik cəhətdən aktiv zonada olduğunu nəzərə alsaq, bundan sonra tikiləcək binaların daha keyfiyyətli, davamlı inşası, həmçinin, o



cümlədən istismarı həyata keçirilən binalarda monitorinq aparılması məqsədəuyğun olar. Layihənin detalları barədə ətraflı məlumatım olmasa da, hesab edirəm bu sahədə ən mükəmməl təcrübə Yaponiya təcrübəsi ola bilər. Zəlzələdən öncə insanların məlumatlandırılmasından tutmuş siqnalizasiya sistemlərinə qədər, binaların tikintisində istifadə olunan aqreqat, detallar, amortizasiya və s. sistemlər baxımından Yaponiya nümunəsi ön sırada dayanır".

Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı mətbuata açıqlamasında bildirib ki, Bakı şəhərindəki binaların zəlzələyə davamlılığı ortalama 8-9 bal olaraq nəzərdə tutulub: "Açıqlanan məlumatlarda görünür ki, Bakı şəhərindəki binaların zəlzələyə orta davamlılığı təqribən 8-9 bal arasında hesablanır. Amma qeyd etdiyimiz rəqəm tam dəqiq şəkildə aparılacaq monitorinqin nəticələrindən sonra müəyyən olunacaq. Bu gün elə binalar var ki, onlar artıq öz istismar müddətini başa vurub. Bəzi binalar da var ki, yeni tikililər olsa da, ya düzgün ərazidə inşa olunmayıb, ya da seysmik baxımdan aktiv ərazidə inşa olunub".

Ekspert standartlara cavab verməyən binaların söküləcəyini bildirib:

"Hər bir halda düşünürəm ki, monitorinqlər başa çatdıqdan sonra biz yekun nəticə haqqında danışa bilərik. Hələlik Türkiyədə baş verən zəlzələdən sonra dövlət qurumlarımızın açıqladığı məlumatlara istinad edə bilərik. Onlar da binaların davamlılıq göstəricisinin 8-9 bal arasında dəyişdiyini bildirirlər. Bu mənbələr isə tikinti prosesi dövründə həmin icra hakimiyyəti orqanlarının apardığı texniki ekspertizaların nəticələrinə əsaslanır. Təbii ki, əgər seysmik göstəricilər normadan aşağı olarsa və bərkitmə kimi tədbirlər mümkün olmasa, bu halda həmin binaların gələcək taleyi ilə bağlı qərar qəbul olunacaq".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# DVX: "Ödənişlərin kartdan karta köçürülməsi istehlakçıların hüquqlarının pozulmasıdır"

**Son dövrlərdə pərakəndə ticarət və iaşə obyektlərində bəzi hallarda nağdsız ödənişlərin POS-terminal deyil, plastik kartlar vasitəsilə kartdan karta köçürmə əməliyyatları tətbiq olunmaqla həyata keçirildiyi müşahidə edilməkdədir.**

"APA-Economics" İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir ki, pərakəndə ticarət və iaşə obyektlərində ödənişlərin kartdan karta köçürmə əməliyyatları vasitəsilə həyata keçirilməsi istehlakçıların hüquqlarının pozulmasıdır. Belə hallarda istehlakçılara POS-terminaldan çıxarış və nəzarət-kassa aparatı çeki təqdim olunmur ki, bu da gələcəkdə istehlakçıların öz hüquqlarını tələb etmək imkanını məhdudlaşdırır. Eyni zamanda, belə hallar mal, iş və xidmətlər əlavə dəyər vergisi ödəyicilərindən alınarkən istehlakçıların "ƏDV geri al" hüququndan məhrum olması ilə nəticələnir.

Bununla yanaşı bildiririk ki, bu qanun pozuntusu vergidənyayınma məqsədi daşıyır və belə əməliyyatlara yol verən vergi ödəyicilərinə vergi orqanı tərəfindən əlavə vergilər, faizlər hesablana və maliyyə sanksiyaları tətbiq oluna bilər.

Dövlət Vergi Xidməti vətəndaşları mal, iş və xidmətlər alarkən nağdsız ödənişləri kardan karta köçürmə əməliyyatları ilə deyil, yalnız POS-terminal tələb etməklə həyata keçirməyə çağırır. Sahibkarlara isə Vergi Məcəlləsində nəzərdə tutulan əlavə maliyyə sanksiyalarına məruz qalmamaq üçün nağdsız ödənişləri qanunvericiliyin tələblərinə əsasən, yalnız POS-terminal vasitəsilə qəbul etmək tövsiyə olunur.



# Moskvadan Lənkərana uçuşlar başlayacaq

**İyunun 22-dən Rusiyanın "Utair" aviaşirkəti Moskvadan Lənkəran şəhərinə uçuşlara başlayacaq. Aviareyslər həftədə bir dəfə - şənbə günləri həyata keçiriləcək. Uçuş müddəti 3 saat 40 dəqiqədir. (Manset.az)**

Qeyd edək ki, bu, "Utair" üçün yeni istiqamətdir. Aviaşirkət bu ay xarici marşrutlar şəbəkəsinə Bakı (Azərbaycan), Antalya (Türkiyə), Səmərqənd (Özbəkistan), İrəvan (Ermənistan) və digər istiqamətləri də əlavə etməyi planlaşdırır.

# Quş qripinin ölümcül növü tapıldı və... ilk can aldı - təhlükə

## Həkim: "Hələlik narahatlığa əsas yoxdur, amma..."

**Dünyada ilk dəfə insanda quş qripinin yeni növünə yoluxma halı qeydə alınıb və o ölümcül olub. "Yeni Müsavat" xəbər verir ki, bu barədə "Reuters" yazıb. A (H5N2) viruslarının Meksikada ev quşlarında aşkar edildiyi məlumdur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qeyd edir ki, 59 yaşında olan və dünyasını dəyişən xəstənin ev quşları və ya digər heyvanlarla təması olmayıb.**

Təşkilatın məlumatına görə, xəstədə yüksək hərarət, nəfəs almaqda çətinlik, ishal, ürəkbulanma və ümumi halsızlıq yaranıb. Ölkənin səhiyyə orqanları ehtimal olunan infeksiya mənbəyini müəyyən etmək və bu qripin yayılma risklərini qiymətləndirmək üçün araşdırma aparır.

Doğrudan da 59 yaşlı meksikalının ev quşları və ya digər heyvanlarla təması olmayıbsa, necə yoluxub?

Qeyd etmək yerinə düşər ki, quş qripi müxtəlif növ quşların və heyvanların kəskin gedişli kontagioz xəstəliyidir. Xəstəlik respirator orqanların, mədə-bağırsaq traktının zədələnməsi, eləcə də quşlar arasında yüksək tələfat və iqtisadi zərər ilə nəticələnir. Virus (A(H5N1), HPAI) həm quşlar, həm də insanlar üçün təhlükəli infeksiya növü hesab olunur. Tədqiqatlar göstərir ki, yüksək patogen quş qripi virusu ətin -70° C-yə qədər dondurulması zamanı 300 gündən artıq müddətdə sağ qalır və öz virulentliyini qoruyub saxlayır. Buna misal olaraq 2001-2007-ci illərdə Koreya, Yaponiya və Almaniya kimi ölkələrə idxal edilmiş çiy toyuq əti və dondurulmuş ördək karkasında quş qripi virusunun aşkar edilməsini göstərə bilərik. Tədqiqatlar nəticəsində virusa yoluxmuş quşların nəinki yumurtasında, onun qabıq hissəsində də törədicinin mövcudluğu öz təsdiqini tapıb. Yumurtanın qaynadılaraq bişirilməsi zamanı viruslar məhv olsa da, çiy yumurta və onun məhsulları ilə təmas insanların xəstəliyə yoluxması baxımından yüksək risk amili hesab olunur. Bu barədə Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun mütəxəssislərinin araşdırmasında qeyd edilib. Bildirilir ki, yüksək patogenli quş qripi bir çox ev və vəhşi quş növləri arasında (toyuq, ördək, hinduşka, sərçə, qarğa, göyərçin, çöl ördəyi, qırqovul, kəklik və s.) qeydə alındığı üçün xəstə quşların sənaye və ya ev şəraitində kəsimi, eləcə də vəhşi quşların ovlanması zamanı insanların virusa yoluxma təhlükəsi böyük olur.

Bəs Azərbaycan bu virusdan nə dərəcədə sığortalanıb? Əhali nəyə diqqət etməlidir?

İnfeksionist-hepatoloq Mərdan Əliyev mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, quş qripi əsasən çöl quşlarından yoluxur. Quşların köç ərəfəsində də bir ərazidən digər əraziyə yayıla bilər. Çöl quşları ev quşlarını da yoluxdurur, bununla da insanlara keçir. Bunun qarşısın almağın əsas yolları baytarlıq, nəzarət sistemi gücləndirilməli, quşların monitorinqi aparılmalı, hansı quşda xəstəlik aşkar olunursa, o zaman onlara qarşı müəyyən tədbirlər görülməlidir. Yəni bu virusdan qorunmağın qaydası budur. Bir hadisə olub, hələ tam araşdırılmayıb. Meksikada bir hadisənin olması və bunun ölkəmizə gəlməsindən danışmaq hələ tezdir. Açığını desəm, düşünmürəm ki, bir hadisə ilə bizə gəlmə ehtimalı olsun. Təbii ki, bizə də gələ bilər, amma yoluxma sayı kütləvi olarsa. Hələ ki narahatlığa əsas yoxdur".

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) isə "Yeni Müsavat"a bildirilib ki, AQTA Ümumdünya Heyvan Sağlamlığı Təşkilatından (WOAH) daxil olan məlumatlar əsasında dünyadakı epizootik vəziyyətə uyğun olaraq müvafiq tədbirlər həyata keçirir və təşkilatın rəsmi məlumatlarına əsasən, Agentlik tərəfindən müvafiq qərarlar qəbul edilir. Eyni zamanda müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunur.

AQTA-nın aidiyyəti qurumlarla birgə respublika ərazisində quş qripi xəstəliyinə qarşı epizootoloji monitorinqlər keçirdiyi və nəticələrini ictimaiyyətə açıqladığı vurğulanıb.

Nəzərə çatdırılıb ki, sonuncu monitorinqlər quşçuluq, eləcə də ovçuluq təsərrüfatlarını, milli parkların su-bataqlıq sahələri və dənizsahili zonaları və s. əhatə edib və bu ərazilərdə ümumi müşahidələr aparılmaqla vəhşi quşlara klinik baxış keçirilib, xəstəlik törədicisinin aşkar edilməsi məqsədilə ovlanmış 59 baş müxtəlif növ vəhşi quşdan diaqnostik material nümunələri götürülüb:

"Aparılmış sonuncu monitorinqlər zamanı müayinələrin və ümumi epizootoloji müşahidələrin təhlili nəticəsində quş qripi xəstəliyinin törədicisinə və xəstəliyə şübhəli klinik əlamətləri olan quşa rast gəlinməyib".



Ekspertlər qeyd edir ki, quş qripinin yayılmasında təhlükə mənbələrindən biri də su hesab olunur. Belə ki, xəstə quşların ifrazatları ilə çirklənmiş suyun pH göstəricisi, temperaturu və duzluluq dərəcəsindən asılı olaraq quş qripi virusları suda 10 günə qədər sağ qalır ki, belə su ilə suvarma quşların yoluxması ilə nəticələnir. Quş qripinin inkubasiya dövrü 3-5 gündür. Virusa yoluxma zamanı quşlar yemdən imtina edir, süstləşir, lələkləri pırpızlaşır, gözləri şişir və yumulur, burun dəliklərindən selikli-serozlu maye axır, bədən temperaturu 44 dərəcəyədək yüksələrək qısa müddətdə (24-72 saat) tələf olurlar.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**



# İstifadəsi tövsiyə olunmayan çimərliklər açıqlandı

**Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi ilə birlikdə 2024-cü ilin yay mövsümünə hazırlıqla əlaqədar olaraq, Bakı və Sumqayıt şəhərləri, respublikanın Lənkəran, Xaçmaz, Astara rayonları ərazisində yerləşən çimərliklərin sanitariya vəziyyətinin müayinəsi və dəniz suyunun keyfiyyət göstəricilərinin laborator tədqiqatının aparılması məqsədilə monitorinqlər keçirilib.**

Səhiyyə Nazirliyindən APA-ya verilən xəbərə görə, laboratoriya müayinələrinin nəticələrinə əsasən, Bakı şəhərinin Buzovna, Zuğulba, Mərdəkan, Şüvəlan, Novxanı, Görədil, Nardaran, Bilgəh və Pirşağı çimərliklərində dəniz suyunun fiziki-kimyəvi, bakterioloji göstəriciləri norma səviyyəsində olduğu aşkarlanıb.

Bununla yanaşı, Səbail rayonunun Şıx, Qaradağ rayonunun Sahil, Suraxanı rayonunun Hövsan, Xəzər rayonunun Türkan, habelə Sumqayıt şəhərinin çimərliklərinin sanitariya-mühafizə zonalarında, eyni zamanda respublikanın sahil zolağının şimal bölgəsinin Yalama, Nabran, İstisu, Seyidli kəndi, cənub bölgəsinin Lənkəran və Astara çimərliklərinin qumsallıqlarında rekreasiya əhəmiyyətli monitorinqlər keçirilib.

Aparılan monitorinqlər zamanı həmin ərazilərdən götürülən dəniz suyu nümunələrinin laborator təhlillərinə əsasən, dəniz suyunun tullantı çirkab suları ilə intensiv çirklənmə hallarının hələ də davam etdiyi və çimərliklərdə dəniz suyunda bakterioloji çirklənmə göstəricilərinin mövcud normativlərin tələblərinə cavab vermədiyi müəyyən edilib.

2024-cü ilin çimərlik mövsümündə dəniz suyunun yüksək bakterioloji çirklənmə göstəricilərinin əhalinin sağlamlığı üçün təhlükə yarada biləcəyini nəzərə alaraq, "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, Səbail rayonunun Şıx, Qaradağ rayonunun Sahil, Suraxanı rayonunun Hövsan, Xəzər rayonunun Türkan, Sumqayıt şəhəri, şimal bölgəsinin (Yalama, Nabran, İstisu, Seyidli kəndi), cənub bölgəsinin Lənkəran və Astara çimərliklərindən istifadənin müvəqqəti olaraq tövsiyə olunmadığı barədə qərar qəbul edilib.

Qeyd edək ki, dəniz suyunun laboratoriya müayinələri zamanı sanitariya-kimyəvi (suyun rəngi, qoxusu, üzən qarışıqlar, asılı maddələr, biokimyəvi oksigen tələbatı, neft məhsulları, fenol) və bakterioloji (bağırsaq çöpləri) göstəricilər araşdırılır.

Hazırda çimərliklərdə dəniz suyunun laborator tədqiqat üsullarından istifadə etməklə nəzarət tədbirləri davam etdirilir.

Monitorinqlərin nəticələri barədə ərazi üzrə Bakı şəhər İcra Hakimiyyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı Baş Polis İdarəsi, Fövqəladə Hallar Nazirliyi, respublikanın ərazi üzrə rayon İcra hakimiyyətlərinə və polis idarələrinə rəsmi məlumatlar göndərilir.

YENİ MÜSAVAT
Son səhifə
N 100 (8473) 8 iyun 2024
iyun

## Bunları bilirsinizmi?

* Normadan çox yemək yeyən insanların eşitmə qabiliyyəti zəifləyir.
* Meşə yanğınları yoxuş istiqamətində daha sürətli yayılır.
* Uşaqların bahar fəslində daha sürətlə böyüdüyü sübuta yetirilib.
* Nə qədər qəribə olsa da, eskimoslar soyuducuları yeməklərin donmaması üçün istifadə edir.
* "Ketçup" əvvəllər dərman kim istifadə edilib.
* İtaliya bayrağının dizaynını Napoleon Bonapart hazırlayıb.
* Soyuq otaqda yatan insanların pis yuxu görmə ehtimalı digərlərinə nisbətən daha çoxdur.
* Diş çöpləri yanlış istifadə nəticəsində amerikalıların boğulmasına ən çox səbəb olan vasitədir.
* Ən uzun barmaqdakı dırnaq ən sürətli, ən qısa barmaqdakı isə ən yavaş templə uzanır.
* Koalalar, primatlar və insanlar özlərinə xas barmaq izi olan yeganə canlılardır.
* Kağız parçalarından Yer üzündə ilk dəfə Çində istifadə edilib.
* İnsanlar anadan bədənlərində 300 ədəd sümüklə doğulur. Yetkinlik dövrünə çatdıqca isə sümüklərin sayı 206-a qədər azalır.
* Telefonu icad edən Aleksandr Qraham Bell həyat yoldaşı və anası ilə heç vaxt telefonla danışa bilməyib. Çünki onların ikisi də anadangəlmə kar olub.
* İnsan səhər yuxudan ayıldıqda boyu standart ölçüdən 1 sm artıq olur.
* Kosmosa qaldırılacaq hər 1 kilo çəki üçün sərf olunan yanacaq miqdarı 530 litrdir.

## 6 yaşlı oğlan xəstə uşaqlar üçün saçını uzadıb

**Amerikanın Florida ştatında yaşayan 6 yaşındakı McPhilami hamını təəccübləndirən bir addım atıb. Belə ki, o xərçəng müalicəsi görən və saçlarını itirmiş uşaqlar üçün saçlarını uzadıb. Dostları məktəbdə ona "sən qızsan ki, saçını uzadırsan" deyə sataşsalar da, uşaq öz məqsədindən dönməyib. Nəticədə uşaq 2.5 il boyunca saçlarını uzadıb və onları kəsdirərək, xəstə uşaqlara verib. Uşağa ailəsi də ciddi dəstək verib.**

## Evlərindən ilan çıxdı, 2 milyon dollar tələb edirlər

**ABŞ-ın Merilend ştatındakı Annapolis şəhərində yaşayan ailə satın aldığı evin əvvəlki sahibini, habelə rieltor şirkətini məhkəməyə verib. Onlar maddi və mənəvi təzminat qismində 2 milyon dollar tələb edirlər.**

4 yaşlı oğlu və 9 aylıq qızı olan Cudi Bruks deyir: "Evi alanda sevinmişdik. Çünki gözəl evdi. Təmirə başladıq. Lakin az sonra evdə ilanla qarşılaşdım. Çox qorxsam da, ərimin köməyi ilə ilanı öldürdüm. Daha sonra, qızım 4 aylıq olanda onun çarpayısında qıvrılıb yatmış ilan gördüm. Bir qədər keçdi, evdə ilanlar qaynaşmağa başladı. Evi tərk etdik, çünki o zəhərli ilanlar hamımızı öldürə bilərdilər".

Cudinin əri Ceffin dediyinə görə, 2014-cü ilin dekabr ayında bu evi 410 min dollara satın alıblar. Daha sonra ailə evdə genişmiqyaslı təmirə başlayıb və binanı normal hala salıblar.

İndisə evdə çoxlu ilan olduğu üçün orada yaşamaq mümkün deyil.

Bu səbəbdən də Trakston roud, 631 ünvanda yerləşən evin sahibləri Ceff və Cudi Brukslar məhkəməyə üz tutaraq Barbara van Horn, Coan Broseker, habelə "Champion Realty, Inc." və "The Joan Broseker Revocable Trust" şirkətlərindən 2 milyon dollar tələb edirlər.

# Depressiyaya düşməmək üçün nə yemək lazımdır?



**Yüksək miqdarda şəkər və doymuş yağlar tərkibli ərzaq depressiyanın inkişafına yol açır. Bu barədə Redinq Universiteti və London Kral Kollecinin alimləri apardıqları araşdırmadan sonra xəbərdarlıq ediblər. Onların tədqiqatlarının nəticələri "NutNeuro" jurnalında dərc olunub. Tədqiqatda 38 tələbə iştirak edib. İştirakçılar depressiya simptomlarını qiymətləndirmək üçün bir sıra psixoloji testlərdən keçiblər, qidalanma rejimləri barədə məlumat veriblər və beynin maqnit rezonans tomoqrafiyası (MRT) müayinəsindən keçməyə razılıq veriblər.**

MRT skanının nəticələri göstərib ki, həddindən artıq şəkər və yağ istehlakı beynin alın payının boz maddəsinin həcmini azaldır. Bu nahiyə depressiya və narahatlıq kimi psixi sağlamlıq problemlərinin inkişafında iştirak edir. Həmçinin mərkəzi sinir sistemi üçün zəruri neyromediatorların istehsalını aşağı salır, bununla da depressiyaya səbəb olur. Nəticə etibarilə, bu tədqiqat göstərir ki, yüksək miqdarda şəkər və doymuş yağlar tərkibli qeyri-sağlam qidalanma vərdişləri beyin sağlamlığına və ruh halına ciddi təsir göstərə bilər. Depressiya riskini azaltmaq üçün tarazlaşdırılmış və sağlam qidalanma tövsiyə olunur.

## Ölümün yaxınlaşmasının iki əlaməti



**Nəfəs darlığı və ya "hava aclığı" ölümün yaxınlaşmasının ən bariz əlamətlərindən biridir. Bu qənaətə ABŞ-nin Qocalmanın araşdırılması institutunun alimləri gəliblər. Alimlər qeyd ediblər ki, qaçılmaz ölümün əlamətləri ya fiziki, ya da psixoloji olur. Birincisinə, çox vaxt "hava aclığı" adlandırılan nəfəs darlığı daxildir. Eyni zamanda, orqanizmin göndərdiyi açıq-aşkar bir siqnal diqqət və konsentrasiyanın pisləşməsidir.**

"Depressiya və yüksək narahatlıq hissi ölümün yaxın vaxtda baş verəcəyini bildirən ən çox müşahidə edilən psixi sağlamlıq simptomlarıdır", - deyə materialda bildirilir. Mütəxəssislər, həmçinin müəyyən ediblər ki, yüksək yorğunluq və yuxululuq ölümün yaxınlaşdığını göstərə bilər. "Ölmək üzrə olan insanlar daha az aktiv olmağa, daha çox istirahət etməyə və əvvəlkindən əhəmiyyətli dərəcədə çox yatmağa meyilli olurlar", - deyə alimlər vurğulayıblar.

## İlanla selfi çəkdirmək istədilər, xəstəxanaya düşdülər

**Omsk şəhərinin iki sakini ilanla selfi çəkdirmək istədikləri zaman bəlaya düşüblər. Belə ki, ilan onların hər ikisini sancıb və onları xəstəxanaya aparmağa məcbur olublar. Selfi eşqinə düşənlərin ikisi də balıqçı olublar. Həkimlərin müdaxiləsindən sonra balıqçıların durumu düzəlib. Zərərçəkənlər bildiriblər ki, əslində onlar ilanı balıqla qarışıq saldıqları üçün(!) bu aqibətlə üzləşiblər. Lenta.ru saytı xatırladır ki, bu, heyvanlarla selfi çəkdirmək istədiyi zaman insanların xəstəxanaya düşdüyü ilk hal deyil. Belə ki, ötən ilin yayında Krasnodar vilayətindəki çimərlikdə kobra ilə selfi çəkdirmək istəyən qadını kobranın vurması hadisəsi ciddi səs-küy yaratmışdı.**

## Baydendən yeni qəribə hərəkət - olmayan stulda oturmaq istədi



**ABŞ Prezidenti Co Bayden yenə qəribə hərəkətləri ilə gündəm olmağı bacarıb. Hadisə onun Fransa Prezidenti Emmanuel Makronla görüşü zamanı baş verib. Bununla bağlı kadrlar Ağ Evin canlı yayımında görünüb. Videoda Baydenin Makronla əl sıxışdırmasından sonra səhnədə mövcud olmayan stula bir neçə dəfə oturmağa cəhd etdiyi görünür. Kadrlara Emmanuel Makronun bu anı görməzliyə vurmağa çalışması da düşüb.**

## Aqressiv xərçəngin ilk simptomları aşkarlandı

**Həkimlər mədəaltı vəzi xərçəngini onkologiyanın ən aqressiv növlərindən biri hesab edirlər. "Xəstəlik sürətlə inkişaf edən və müalicəsi çətin olan kimi təsnif edilir", - deyə onkoloq və cərrah İvan Karasyov xəbərdarlıq etdi. "Bu orqanın sıradan çıxması insan orqanizmindəki iki nəhəng sistemi - həzm və hormonal sistemləri dərhal sarsıdacaq", - deyə həkim bildirib. Qarın nahiyəsində (adətən mədəaltı vəzinin yanında yerləşən nahiyədə) ağrılara diqqətli olmaq lazımdır.**

Onkologiya zamanı narahatlıq, insanın üfüqi bir mövqe tutduğu anda kürəyə yayıla və güclənə bilər. Vəziyyətin yeməkdən sonra pisləşmə ehtimalı da var. Belə halda ağrı sindromu oturan anda o qədər də nəzərə çarpmır. Bir çox insanlar uzun müddət mədəaltı vəzi xərçəngini fəqərəarası disk xəstəlikləri ilə qarışdırırlar. Mədəaltı vəzi zədələnməsi adətən dərinin və göz qişasının sarılığı ilə özünü büruzə verir. Onkoloq Karasyov qeyd edir ki, sarılıq mədəaltı vəzinin başındakı şişin əlaməti ola bilər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 1.500